# Paralel

www.paralel.az

İctimai-siyasi qəzet

11 may 2023-ci il

№ 058 (3626)
Qiyməti 50 qəpik


**Gün-Xəbər**




## Şuşada Ulu öndərin 100 illiyi münasibətilə film nümayiş olunub

Mayın 10-da Şuşa şəhərində müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "**İz**" adlı sənədli film nümayiş etdirilib.

Filmin nümayişində Beynəlxalq Musiqi Festivalının qonaqları, incəsənət və elm xadimləri iştirak ediblər. Heydər Əliyev Fondu tərəfindən təqdim edilən ekran əsərində Ulu öndərin həyat və fəaliyyətindən bəhs olunur. Filmin ssenarisi H.Əliyevin çıxışları əsasında onun siyasi fəaliyyətinin müxtəlif dövrlərini əhatə edir. Filmdə ümummilli liderin həyatı, Azərbaycana və xalqa bağlılığı, Azərbaycanın müstəqil dövlət kimi qüdrətlənməsi, Qarabağın işğaldan azad edilməsi istiqamətində apardığı ardıcıl siyasətdən bəhs olunur. Eyni zamanda, işğal altındakı torpaqlarımızın azad olunması, bununla da ümummilli lider Heydər Əliyevin vəsiyyətinin və arzularının reallaşması da filmdə yer alıb.

## Sülh müqaviləsinin mətni masadadır



*"Sülh müqaviləsinin mətni danışıqlar masasındadır".*

Bunu Ermənistan xarici işlər nazirinin müavini Mnatsakan Səfəryan deyib.

Onun sözlərinə görə, Azərbaycan və Ermənistan liderləri arasında Brüsseldə keçirilməsi nəzərdə tutulan görüşündə hər iki ölkənin xarici işlər nazirləri bir araya gələcəklər: *"Nazirlərin görüşünün mayın 19-da baş tutacağı planlaşdırılır".*

M.Səfəryan görüşün harada keçiriləcəyini açıqlamayıb.

# Udsa da, uduzsa da, Türkiyəyə möhrünü vurmuş prezident



Qətərin nüfuzlu *"Əl-Cəzirə"* telekanalının saytında *"Türkiyə seçkilərində Qərb illüziyaları"* adlı təhlil dərc olunub. Məqalə müəllifi Mərvan Bişara Prezident Rəcəb Tayyib Ərdoğanın əsas seçici kütləsinin bütün hallarda səsverməyə gedəcəyini yazır: *"Hazırkı prezident öz bazasını qurmaqda kifayət qədər bacarıqlı olduğunu sübut edib. Təcrübəli siyasətçi və xarizmatik təşviqatçı kimi Ərdoğan əhalinin əksər təbəqəsi arasında bazasını gücləndirib. Tərəfdarları daha qətiyyətli və onun yenidən seçilməsinə daha sadiq görünürlər".*

Müəllif bu baxımdan Ərdoğanın rəqiblərindən öndə olduğunu iddia edir. Təhlildə müxalifətin namizədi Kamal Qılıçdaroğlunun seçiləcəyi təqdirdə xarici ölkələrlə münasibətlərdə yumşaq siyasət izləyəcəyi qeyd olunur.

Bişaranın fikrincə, Prezident Ərdoğan Qılıçdaroğludan fərqli olaraq, seçkilərdə xarici deyil, daxili məsələlərə görə qalib gəldiyini və ya uduzduğunu anlayır: *"Ərdoğan qalib gəlsə, onun daxili və xarici, xüsusən də Rusiya, Avropa və ABŞ-a qarşı gündəmini ikiqat artıracağı şübhəsizdir. O da gözləniləndir ki, Türkiyə öz maraqları üçün Qərb və Rusiya ilə münasibətləri balanslaşdıraraq böyük güclərə qarşı balanslı yanaşmanı davam etdirəcək. Rusiya ilə ticarət və geosiyasi əlaqələri gücləndirməklə yanaşı, Türkiyənin NATO üzvlüyünü qoruyacaq.*

*Xarici siyasət təcrübəsi olmayan Qılıçdaroğlu, çox güman ki, seçiləcəyi təqdirdə Türkiyənin Qərb və NATO tərəfdaşlarına qarşı mövqeyini yumşaldacaq və İsveçin hərbi alyansa üzvlüyünə qoyulan vetonu aradan qaldıracaq.*

*Onu sevin və ya nifrət edin, etiraf etmək lazımdır ki, Ərdoğan qarşıdan gələn seçkilərdə qalib gəlsə də, uduzsa da, Türkiyəyə möhrünü vurmuş prezidentdir".*

## Qonşumuz İran niyə bizə düşmən kəsilib?



**Söyüş acizlərin son silahıdır**

Səh.3

## Ərdoğan, yoxsa Qılıcdaroğlu?



**Türkiyədə kimin prezident olmasının bizə heç bir fərqi yoxdur**

Səh. 5

## Ehmallı dilənçi



**İstehzanın islahedici qüvvəsi**

Səh. 6



## ”Rusiya və Ukrayna arasında sülh mümkün deyil”

**BMT Baş katibindən gözlənilməz açıqlama...**

***"BMT-nin məqsədi ədalətli sülhə dərhal deyil, sonradan nail olmaqdır, hazırda diqqət cari humanitar məsələlərin həllinə yönəlib..."***

***"BMT Baş katibinin mövqeyi heyrət doğurur və öz gücsüzlüyünə haqq qazandırır..."***

BMT-nin Baş katibi Antoniu Quterriş bəyan edib ki, Rusiya ilə Ukrayna arasında danışıqlar hələlik az ehtimal edilir.

Bu barədə o İspaniyanın ”El Pais” gündəlik ictimai-siyasi qəzetinə müsahibəsində bəyan edib.

***"Təəssüf ki, mən sülh danışıqlarını hazırda mümkün hesab etmirəm. Hər iki tərəf qalib gələ biləcəyinə əmindir"***, - o deyib və qeyd edib ki, Rusiyanın ***"işğal etdiyi ərazilərdən çıxması"*** arzusunu görmür, Ukrayna isə ***"onları geri qaytarmağa ümid edir"***.

O, həmçinin Çin və Braziliyanın vasitəçiliyinin Ukraynada döyüş əməliyyatlarına son qoymasına şübhə etdiyini bildirib.

***"Mən artıq dedim ki, hazırda sülh danışıqları olmayacaq. Lakin ümid edirəm ki, gələcəkdə onlar baş tutacaq. Rusiyalıların qış hücumu və ukraynalıların yaz hücumları haqqında söhbətlər gəzib. Aydındır ki, hər iki tərəf tamamilə müharibəyə köklənib"***, - Quterriş deyib.

Eyni zamanda, BMT rəhbəri Pekinin nüvə eskalasiyasının qəbuledilməzliyi haqqında mövqeyini yüksək qiymətləndirib və bunu ***"dözülməz cəfəngiyyat olan vəsvəsədən yan keçmək üçün çox vacib mövqe"*** adlandırıb.

O, qeyd edib ki, BMT-nin məqsədi ***"beynəlxalq hüquq və BMT Nizamnaməsinə uyğun olaraq ədalətli sülhə dərhal deyil, sonradan nail olmaqdır"***. Və etiraf edib ki, ***"bunlara hələ çox var"***.

BMT Baş katibinin fikrincə, hazırda bu beynəlxalq təşkilat diqqətini həm Kiyevlə, həm də Moskva ilə cari humanitar vəzifələrin həlli üçün dialoqa dəstək verilməsinə yönəldib.

O, mayın 18-də müddəti bitəcək taxıl sövdələşməsi üzrə danışıqları nümunə gətirib. Bu saziş ukraynalılar tərəfindən taxılın dənizlə çıxarılmasına, həmçinin Rusiyanın ərzaq və gübrələrinin Qara dəniz limanlarından ixracına aiddir.

Ukrayna prezidenti Ofisi rəhbərinin müşaviri Mixail Podolyak BMT Baş katibinin bəyanatına münasibət bildirib. O, sülh üçün şərtləri xatırladıb.

”BMT-nin Baş katibi Antoniu Quterrişin ”hazırda Ukraynada sülh mümkün deyil” ifadəsi bir qədər heyrət doğurur. Ona görə ki, sülh tamamilə mümkündür. Bunun üçün:

***1. Təcavüzkara, nəhayət, BMT Nizamnaməsinin müvafiq maddələri xatırladılmalı və ondan yad ərazini tərk etmək "mədəni şəkildə" xahiş edilməlidir.***

***2. Rusiya Federasiyası BMT-nin və BMT Təhlükəsizlik Şurasının bir hissəsi hesab edilməməlidir.***

***3. Rusiya öz qoşunlarını Ukraynadan çıxarmalıdır, - Podolyak özünün "Twitter" səhifəsində yazıb.***

O, BMT Baş katibinə ”hər şey aydın olduğu halda özündən mənalar düşünməməyi və süni gücsüzlüyünə haqq qazandırmamağı” tövsiyə edib.

# Ankaranın xəbərdarlığı İrəvanı qorxuya saldı

## "Təlaşla hazırlaşırlar"

**Türkiyənin İrəvanda “Nemesis” terrorçularına qoyulmuş bədnam abidənin sökülməsi ilə bağlı tələbi və xəbərdarlığı Ermənistan hökumətini təşvişə salıb.**

Bu barədə Ermənistanın “Hraparak” qəzeti yazır.

***“Türkiyə hakimiyyəti “Nemesis” abidəsi ilə bağlı bizə ultimatum verib, onun sökülməsini tələb edir. Hakimiyyətimiz isə qorxu və təlaş içində hərəkət edir, deyəsən, abidəni götürməyə hazırlaşır”***, - məlumatda deyilir.

Türkiyə bədnam abidənin qoyulmasından sonra hava məkanını Ermənistan üçün bağlayıb. Bundan sonra Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu Ermənistana xəbərdarlıq edib. Onun sözlərinə görə, Türkiyə abidənin sökülməsi ilə bağlı İrəvana xəbərdarlıq edib, tələb yerinə yetirilməsə, Ermənistana qarşı adekvat addımlar atacaq.



***“Nemesis”*** əməliyyatı ***“Daşnaksütyun”*** terror təşkilatının ötən əsrin əvvəllərində Azərbaycan və Osmanlıya qarşı keçirdiyi terror aksiyasıdır. O dönəmdə erməni terrorçular tərəfindən qətlə yetirilənlər arasında Osmanlı İmperiyası və Azərbaycan Xalq Cümhuriyyətinin keçmiş rəhbərləri də olub.

# İlk dəfədir ki, Ukraynaya uzaqmənzilli raketlər göndəriləcək

”Washington Post” xəbər verir ki, Böyük Britaniya Ukraynaya ”Storm Shadow” uzaqmənzilli raketləri göndərməyə hazırlaşır. Bu çox önəmli hadisədir. Uzun müddətdir ki, Ukrayna SQ-nin 2 silah növünə kəskin ehtiyacı vardır. Söhbət uzaqmənzilli raketlərdən və müasir aviasiyadan gedir. Böyük Britaniyanın Ukraynaya verəcəyi ”Storm Shadow” raketləri məhz uzaqmənzilli raketlərdir. ”Storm Shadow”-un fərqli modifikasiyaları mövcuddur və ən yeni raketləri 560 kilometr məsafəsinə zərbə endirmək gü-cündədir. Böyük Britaniyanın Ukraynaya vermək istədiyi ”Storm Shadow”-lar 300 kilometr məsafəsinə zərbə endirəcək.

Məsələnin siyasi tərəfi ondan ibarətdir ki, Ukraynaya hansısa növ silahların ilk dəfə verilməsini hər ölkə cəsarət etmir. Bunun üçün presedent lazımdır və Böyük Britaniya bu rolu öz üzərinə götürən ölkədir. Misal üçün bütün dünya Ukraynaya müasir tankların verilməsində tərəddüd edən zaman Böyük Britaniya ”Challenger 2” tanklarının göndərilməsini elan etmişdi və bundan sonra Qərb koalisiyasının bir çox ölkələri presedentdən istifadə edərək fərqli müasir tankların kütləvi tədarükünə start verdi. Eyni mexanizmi uzaqmənzilli raketlərin göndərilməsində müşahidə etməkdəyik.



***Kamran Cəfərov***

# ABŞ Rusiyanın 20 illik casus proqramını məhv edib



**ABŞ Rusiyanın Federal Təhlükəsizlik Xidmətinə (FSB) aid olduğu bilinən 20 illik casus proqram şəbəkəsinin məhv edildiyini açıqlayıb.**

ABŞ Ədliyyə Departamentinin açıqlamasına görə, Rusiya 2004-cü ildən ***“İlan”*** adlı xüsusi proqramdan istifadə edərək, 50 ölkədə virusa yoluxmuş yüzlərlə kompüterdən gizli məlumatlar ələ keçirib.

Qeyd edilib ki, bu əməliyyat sayəsində zərərli proqramların yayılması üçün istifadə edilən virtual infrastruktur sıradan çıxarılıb və bu, sözügedən proqram təminatının təkrar istifadəsini xeyli çətinləşdirəcək.



# PENTAQON TƏSDİQLƏDİ

## “Ukrayna ordusu ”Kinjal”ı vura bilib”

**ABŞ Müdafiə Nazirliyi Rusiyaya məxsus hipersəsli Kinjal raketinin Ukraynada vurulduğunu təsdiqləyib.**

Bu barədə Pentaqonun mətbuat katibi Patrik Rayder bildirib. O qeyd edib ki, Ukrayna hərbçiləri bunu Amerikanın “Patriot” hava hücumundan müdafiə sisteminin köməyi ilə edib.

Mayın 6-da səhər saatlarında Ukrayna Hərbi Hava Qüvvələrinin komandanı general Nikolay Oleşçuk “Kinjal” raketinin məhv edildiyini açıqlamışdı. Onun sözlərinə görə, bu, mayın 4-də gecə hücumu zamanı baş verib. Raket Rusiyadan MiQ-31K təyyarəsi tərəfindən atılıb. O, Kiyev bölgəsi üzərində səmada ”Patriot” hava hücumundan müdafiə sistemi tərəfindən vurulub.



“Defence Express” nəşri daha əvvəl “Kinjal”a bənzəyən raket fraqmentlərinin aşkarlanması barədə məlumat vermiş və mayın 4-nə keçən gecə Kiyev səmasında baş verən partlayışın məhz bu raketin məhv edilməsi ilə əlaqəli olduğunu irəli sürmüşdü. Rusiya silahlı qüvvələri raketin vurulması ilə bağlı xəbərləri və Pentaqonun məlumatlarını şərh etməyib.

2022-ci ilin avqustunda Rusiyanın müdafiə naziri Sergey Şoyqu ”Kinjal”ın aşkarlana və ya tutula bilməyəcəyini iddia etmişdi.

### İtmişdir

**MAXE Rəşidli Şa-mil İlqar oğlunun (doğum tarixi: 31.011994-cu il) adına verilmiş AD0014938 hərbi qulluqpçunun şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

www.paralel.az
e.mail adresi: paralel_qazeta@mail.ru





## Paşinyanın saatı şübhələrə yol açıb

**Ermənistan Baş naziri Nikol Paşinyan Korrupsiyanın qarşısının alınması komissiyasına təqdim etdiyi bəyannamədə bahalı qol saatını qeyd etməyib.**

Bunu Ermənistanın "Joqovurd" nəşri yazıb.

Məlumatda deyilir ki, sözügedən komissiya Paşinyanla yanaşı, Baş nazirin müavini və bir neçə nazirin təqdim etdikləri bəyannamələrdə pozuntuların olduğunu, gəlirlərin gizlədildiyini qeyd edib. Qurum hətta bununla bağlı Mill Təhlükəsizlik Xidmətinə mü-raciət edərək, Paşinyanın saatı da daxil olmaqla, sözügedən məmurların gizlədilən gəlirlərinin mənbəyini, bu şəxslərin bizneslə məşğul olub-olmadığını araşdırmağı xahiş edib.

Məlumatda deyilir ki, Paşinyanın aylıq maaşı 1.580 min dramdır ki, bu da təxminən 4 min ABŞ dolları edir. Onun taxdığı saat və geyindiyi bahalı kostyumların dəyəri isə aldığı əmək haqqını xeyli üstələyir. Həmçinin, qeyd olunur ki, Paşinyanın arvadı da bahalı geyim və qızıl-zinət əşyaları ilə seçilir.

## TALIBOVLAR YUBİLEY TƏDBİRLƏRİNƏ QATILMADI

### Bakıya da gəlməyib…

**Naxçıvan Muxtar Respublikası (NMR) Ali Məclisinin keçmiş sədri Vasif Talıbov Ümumilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı keçirilən təntənəli mərasimlərə qatılmayıb.**

Talıbov dünən və bu gün ictimaiyyət arasında görünməyib, Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini də ziyarət etməyib. Mənbə xatırladır ki, V.Talıbov vəzifədə olduğu illərdə hər il mayın 10-da Bakıya gələr, Fəxri Xiyabanda mərhum prezidentin məzarını ziyarət edərdi. Amma o bu il Bakıya da gəlməyib.

Məlumatda daha sonra qeyd olunur ki, V.Talıbovun deputat oğlu Seymur Talıbov da Heydər Əliyevin yüz illik yubileyi ilə bağlı tədbirlərə qatılmayıb. Mənbə xatırladır ki, o Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti kimi hər ilin may ayında Naxçıvanda Ümumilli Liderin xatirəsinə həsr olunmuş beynəlxalq şahmat turniri düzənləyirdi. Talıbov bu il ənənəsini pozmalı olub.

# Qonşumuz İran niyə bizə düşmən kəsilib?

Başlığa çıxardığım bu sual məni həmişə düşündürür. Uzunmüddətli araşdırmalarımdan sonra belə qənaətə gəlmişəm ki, qonşu ölkələrlə, xüsusən İranla aramızda yaranmış problemlərin səbəblərinin bir hissəsi elə özümüzlə bağlıdır. Məhz qeyri-obyektiv yanaşmamıza görə, hətta haqlı olduğumuz bir çox məqamlarda haqsızlıqla üzləşməli oluruq.

İranın Azərbaycan dövlətinə bəslədiyi pis münasibətin səbəblərindən hər birimiz xəbərdarıq. Burada tarixə nəzər salıb, ilk səhvin haradan, kim tərəfindən başladığına diqqət yetirməyə ehtiyac duymuram.

Hazırda Azərbaycan hakimiyyəti Ermənistanın tərəfini tutan İranla bağlı tənqidə meydan verməklə, özünün dövlət maraqlarını müdafiə edir.

44 günlük müharibədən sonrakı müddətdə davranışlarıyla, xüsusən də "Zəngəzur dəhlizi" termini üzərində qurduğumuz diplomatik manevrlərə aqressiv reaksiyasıyla İran, bizim nöqteyi-nəzərimizcə, çox böyük səhvlərə yol verdi (Hərçənd, bu məsələdə onların da öz oyunları, əsasları var). Biz də o səhvlərdən yararlanıb, həm indiyədək İranla münasibətlərə görə, ata bilmədiyimiz addımların atılmasını sürətləndirdik ***(İsraillə təhlükəsizlik sahəsindəki münasibətlərin leqallaşdırılması, səfirliyimizin açılması və s.)***, həm də 2020-ci ilin 10 noyabrında Rusiya silahlılarının Qarabağa yerləşdirilməsinə razılaşdığımıza görə, Qərblə pozulan münasibətlərdə yenidən geriyə çevik dönüş imkanı əldə etdik.

Qərb 2020-ci il qələbəmizdən sonra Azərbaycanı sərt tənqid etdi, işğal altında olan torpaqlarımızı azad etdiyimizi təqdir etmədi. Amma İranla Azərbaycan arasında gərginlik artan kimi, hədələdiyi İlham Əliyev hakimiyyətilə İran təhlükəsinə qarşı əməkdaşlığa hazır olduğunu elan etdi.

Fikir verin, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına göz yuman, Qarabağdakı separatçılara status tələb edən ABŞ-ın dövlət katibi Blinken belə, Azərbaycanın İranla sərhədlərini qorumağa hazır olduqlarını dilə gətirdi. Hökumətimiz isə Azərbaycana qarşı xəyanətdə, ermənilərlə əməkdaşlıq etməkdə günahlandırdığı Qərbin fəallaşmasına şərait yaratdı.

Buradan çox aydın görünür ki,Qərb hazırda Rusiya ilə Ukrayna arasında alovlanan müharibəni körüklədiyi kimi, İranla Azərbaycan arasında da qardaş müharibəsinin alovlanmasını istəyir.

Qənaətimə görə, müharibədən sonrakı siyasətini ictimai rəydə əsaslandırmağa çalışan, təbliğat sahəsində rəqiblərinə uduzan hökumətimizin din və İran siyasəti düzgün tərtib edilmir, xeyli yanlışlıqlarla və səhvlərə yol verilir. Təki mən səhv etmiş olum, amma hesab edirəm ki, İranla Azərbaycan arasında getdikcə artan gərginliyi dramatikləşdirməyə ehtiyac yoxdur. İran dövlətini yönədən molla rejiminin təcavüzkar Ermənistana dəstək verməsi, hərbi silah-sursatla təmin etməsi, eyni zamanda həm də şiə təriqətinə edilən xəyanətdir.

Düşünürəm ki, İran Ermənistanın təcavüzkar siyasətinə dəstək verməklə, ciddi səhvə yol verdiyinə görə, Azərbaycanın ənənəvi məzhəbi sayılan şiəliyə qarşı cəbhə açanlara xidmət etmək, bununla İranı məzhəb qarşıdurmasına sürükləmək, regionu "ikinci Suriya"ya çevirməyə cəhd kimi də xarakterizə etmək olar.

Əlbəttə, İrana qarşı aparılan bu xətalı siyasətdən geri çəkilmək lazımdır. Dövlətimizin üçrəngli bayrağında əks olunmuş ənənəvi dinə sahib çıxmalı, onu yadların öhdəsinə verməməli və ölkəmizin din siyasətini İranın yanlış din siyasətindən uzaq tutmalıyıq.

Hesab edirəm ki, dövlətimiz İranla bağlı siyasətinə ciddi düzəliş etməli, hələ də yetkin siyasət anlayışına sahib olmayan partiya rəhbərlərinə, özünü ekspert qismində ortaya atan yarımçıq məişət avaralarının iki dövlət arasındakı siyasəti yanlış şərh etmələrinə imkan verməməliyik.

Təəssüflə qeyd edirəm ki, ölkənin İran siyasətini, İranın yanlış ermənipərəst siyasətinə qarşı təbliğatı elə bacarıqsız adamlara tapşırıblar ki, onlar bu siyasətin mahiyyətindən və həyata keçirilmə taktikasından çox uzaqdırlar. Bu cür yanlışlığa yol vermək sadəcə, Azərbaycanın İran siyasətinə zərbə vurmaqdan başqa şey deyil.



Azərbaycanın təbliğat ruporları sayılan efirlərimizə baxdıqca, adam əsəbləşir. Ekranlara politoloq kimi çıxarılan "dəllal"ların söyüş ritorikası ölkəmizin təbliğatının əsaslarına sarsıdıcı zərbə vurur. Ekranı seyr edən hər kəs Cənubu Qafqazda yaranmış çətin siyasi durumun doğru təhlilini eşitmək əvəzinə, Putinin, Makronun, Xomneyinin və Paşinyanın ünvanına söyüşlər eşidir. Axı, bu söyüşlə, təhqirlə nəyə nail olmaq istəyirik? Məgər, siyasətin ləyaqətlə aparılması barədə oxuduqlarımızı, bildiklərimizi, deyilənləri unutmuşuq?

Ölkənin efirlərində gedən təbliğat haqqında normal fikir söyləmək qeyri-mümkündür. Televiziyaların yayım platformalarının mövzuları əxlaqımızla ziddiyyət təşkil edir, anormal adamların məkanına «dəli yığıncağına» bənzəyir. Fərq ondadır ki, verilişin bəzilərində adamlar bədənlərilə, digərində düşüncələriylə iştirak edir! Əgər hər bir siyasətçi efirin təsir gücündən normal istifadə etmək istəyirsə, arqumentlərlə, məntiqlə, dəlil-sübutlarla danışmalı, insanları ölkəmizə qarşı yönələn düşmən siyasətinin yanlışlığına inandırmalıdır! İnandıra bilmirsə, efirə çıxıb, söyməməli, heç kimi alçaltmamalı, təhqir etməməlidir. Çünki həyatda yanlış yanaşma, münasibət adekvat cavab yaradır, söyən özünün də söyüldüyünü, təhqir edən cavabını alacağını unutmamalıdır!

Peyğəmbərimiz Həzrəti Məhəmməd (s.ə.s.) öz səhabələrinə deyərdi ki, nə qədər haqsız olsalar da, bütpərəstləri söyməyin, çünki onlar da dönüb bizim Allahımızı söyəcəklər. "Qurani-Kərim"in "Ənam" surəsində ayədə deyilir: ***"Allahdan başqasına tapınanları söyməyin. Onlar da nadanlıq üzündən Allahı düşməncəsinə söyərlər".***

İran haqqında normal düşüncəyə malik olan hər bir insan yaxşı bilir ki, İran əsrlərin sınağından çıxmış din ideologiyasını qorumaq qüdrətinə sahibdir. Bu, Yaxın və Orta Şərqdə hər kəsin təsdiq etdiyi reallıqdır. Bu gerçəkliyi görmək, bilmək və unutmamaq lazımdır.

İranda əyləşib bizim millətimizin, dövlət rəsmilərimizin ünvanına söyüş, təhqir yağdıranları da normal adamlar saymıram və saymaq da mümkün deyil. Ümumiyyətlə, sübut olunub ki, sağlam nəsildən törəyənlər belə yaramaz işlərə qol qoymur! Biz İrana qarşı çıxış edən də, unutmamalıyıq ki, bu günkü İran dövləti min illərlə azərbaycanlıların qurduğu, idarə etdiyi dövlətdir! "Əhli-Beyt" ardıcıllarını qoruyan və onları əziz tutan da, məhz elə azərbaycanlılardır!

Bu günkü İran dövlətinin əsasını, fars dilində danışıb, yazsalar da, azərbaycanlılar təşkil edir! Yəni İran dövlətinin farslardan çox bizim babalarımızın qurduğu dövlət olduğunu unutmamalıyıq.

**Bununla yanaşı, İranın din və dövlət yetkililərinin yanlış erməni sevgisinin bizim dövlətimizə və xalqımıza qarşı xəyanət olduğunu heç kim inkar edə bilməz.**



*Tapdıq ABBAS*
*Təsisçi,*
*"Əməkdar mədəniyyət işçisi",*
*Pedaqoji fəlsəfə doktoru,*
*Qarabağ müharibə veteranı*
*t.abbas1952@list.ru*

11 may 2023-ci il
www.paralel.az
e.mail adresi: paralel_qazeta@mail.ru


# Ölkədə rüşət və korrupsiyanın qarşısı niyə alınmır?

## Məmurlar ən çox gəliri rüşvətlə əldə edir

Zaman bütün dövrlərin dəyərini müəyyən edən əsas meyardır. Tarixi müxtəlif dövrlər üzrə incələdikcə, bir zaman dəbdə olan ənənənin sonrakı mərhələlərdə bir çox hallarda yasaq olduğunu görürük. Uzağı demirəm, elə sovetlərin son dönəmində, Qorbaçovun Sov. İKP-nin Baş katibi olduğu 1985-1991-ci illərdə " SSRİ-də rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə" tədbirləri haqqında partiyanın qəbul etdiyi qərarda rüşvətə qarşı mübarizə tədbirlərini gücləndirmək nəzərdə tutulurdu. Amma alınmadı, əvəzində SSRİ dağıldı. Xatırlayıram, Jdanov (Beyləqan) rayon XDS-in o zamankı sədri İslam Məmmədov partiyanın qərarını icraiyyə komitəsinin yığıncağında müzakirəyə çıxaranda, rüşvəti "zəhmətsiz gəlir" əldə edilməsinin çox çətin proses və rüşvət alanın dərin stress keçirməsinə səbəb olduğunu vurğulamışdı. Sədr rüşvəti şəxsi təcrübəsi əsasında elə şərh etmişdi ki, bu şərh uzun müddət yığıncaq iştirakçılarının, o cümlədən xatirəmdən hələ də silinməyib.

Həmin dövrdə Jdanov (indiki Beyləqan) rayon Mərkəzi Xəstəxanasının baş həkimi vəzifəsində çalışmış, rayon əhalisinin çox sevdiyi, hörmətli həkim dostum Əyyub Məmmədovla Bakıda, redaksiyada tez-tez görüşürük və bəzi hallarda keçmişdə baş vermiş bu tip hadisələrə, o cümlədən Jdanov XDS-nin sədri İslam Məmmədovun rüşvəti "zəhmətsiz gəlir"in "çətin iş" olduğunu şərh etməsini tez-tez xatırlayırıq, keçmişlə indi arasında rüşvətə münasibətin kökündən dəyişməsini, hazırda dünyada və ölkədə rüşvətin, az qala, "həlledici amil"ə çevrildiyi barədə söhbətlər edirik.

Həkim Əyyub Məmmədovdan söz düşmüşkən, bir vacib məqamı qeyd edim ki, həkim təcrübəli və peşəkar olmaqla yanaşı, həm də bacarıqlı və istedadlı alimdir, hələ sovet dönəmində ABŞ Tibb Akademiyasının fəxri üzvü, xeyli elmi əsərin müəllifidir. Yaşı 90-nı ötsə də, hələ də elmi məqalələr yazır, "Paralel" qəzetində silsilə məqalələri dərc olunur. Həkim jurnalistika sahəsinə yüksək maraq göstərməklə bərabər, jurnalistikanı ölkəmizdə demokratik inkişafın təmin olunması barədə yaxşı mülahizələri, təklifləri var...

Deyəsən, rüşvət mövzusundan bir qədər uzaqlaşdıq. Qeyd edim ki, rüşvət insan cəmiyyəti formalaşmağa başlayanda yaranıb və hər bir tarixi mərhələdə rüşvət rol oynayıb, hazırda da cəmiyyətin inkişafında əhəmiyyətli rol oynayır. Altını xüsusi olaraq cızıram ki, bir sıra orta əsr siyasi iqtisadçıları dövlətin möhkəmlənməsində və inkişafında rüşvətin müsbət rolu barədə fikir irəli sürmüşlər. Sovet dövründə yaşayan siyasətçilərin bir qismi SSRİ-nin dağılmasının səbəblərindən birini rüşvətin, "zəhmətsiz gəlir"in dövlətçiliyin möhkəmləndirilməsindəki rolundan düzgün istifadə olunmaması ilə izah ediblər. Hazırda rüşvətin dünya liderlərinin yüksək qazanc əldə etdikləri vasitələrdən biri olduğu yüksək dairələrdə etiraf olunur.

Hazırda dünya ağalığı uğrunda bir-birilə qanlı mübarizə aparan ABŞ, Cin və Rusiya kimi superdövlətlərin prezidentlərinin rüşvətlə əldə etdikləri iri məbləğ barədə dünya mediasında ciddi yazılar gedir. Rüşvətin dünya liderlərinin əsas gəlir mənbələrindən birinə çevrildiyi barədə iddia günümüzün gerçəkliyinə çevrildiyinə görə, Azərbaycan dövlət orqanlarında rüşvətin geniş yayılması halları insanlarda təəccüb doğurmur. Sadəcə, xalqın əksəriyyətinin sosial-iqtisadi durumunun ağır olması, rüşvətxorluğun dövlətin bütün sferalarını sarması sadə insanları qəzəbləndirir. İnsanları hakimiyyətdən narazı salan, qəzəbləndirən odur ki, bu gün ölkədə dövlət orqanlarında vəzifə tutan şəxslərin aldığı vəzifə maaşları ilə onların dəbdəbəli və zəngin həyat tərzi, sahib olduqları milyonlarla ölçülən sərvətlər arasında astronomik rəqəmlə ifadə olunan fərq var.

Azərbaycanda rüşvətxorluğun geniş yayılmasının bir neçə istiqaməti mövcuddur. Birinci istiqamət kadrların kütləvi şəkildə rüşvətlə təyinatıdır. İkinci istiqamət təyin olunmuş kadrların fəaliyyətində rüşvət amilinin əsas yer tutmasıdır. Üçüncü istiqamət ölkə əhalisinin Bakı şəhərində yaşayanların, həmçinin rayondan gəlib şəhərdə ev tikmək istəyən insanların arzusundan məmurların sui-istifadə etməsidir, xüsusən icra strukturları, polis orqanları torpaq alıb ev tikən, evi obyektə çevirmək üçün pəncərə, qapı açan, evinin mərtəbəsini artıran, təsərrüfat təyinatlı torpaqda ev tikən insanlardan 10-20 min manat civarında rüşvətalma halları ölkədə, xüsusən Bakı, Gəncə, Sumqayıt, Şirvan şəhərlərində və rayon mərkəzlərində çox geniş yayılıb. Rüşvətxorluğun bu növü ölkədə o qədər geniş yayılıb ki, hətta bir çox insanlar bu halın qanuni şəkil almasına inanır.



Gəlin, bir neçə fakta diqqət yetirək. Qarabağ qazilər torpaq uğrunda döyüşlərdə sağlamlıqlarının bir hissəsini itirdiklərinə görə, dövlətdən müxtəlif yardımlar almaq hüququna malikdirlər. Yaxından tanıdığım İlham adlı Qarabağ qazisi 44 günlük müharibədə əvvəldən axıra kimi döyüşlərdə iştirak edib və ölkə prezidentinin sərəncamı ilə bir neçə ordenlə təltif olunub. Qazi Bakının Binəqədi rayonunda şəxsi torpaq alıb və ətrafdakı hər kəs kimi, şəxsi ev tikməyə başlayıb. Qazi tikintiyə başladığı günün səhəri bələdiyyə sədri, icra nümayəndəsi və ərazi üzrə polis nəfəri tikintini dayandırıb deyiblər ki, ya 5 min manat rüşvət verməlisən, ya da Binəqədi RİH-ə gedib icazə almalısan. Qarabağ qazisi səhəri gün Binəqədi RİH-in başçısı Elxan Allahverdiyevin qəbuluna gedib və başçının özü ilə yox, birinci müavini ilə görüşüb, müavinə özü barədə ətraflı məlumat verib, təltif olunduğu medalları təqdim edib və evin tikintisini davam etdirməyə icazə verilməsini xahiş edib. Birinci müavin «gedin, gözləyin», deyib və qazi xeyli gözlədikdən sonra bir neçə dəfə birinci müavinin qəbuluna düşməyə çalışır, lakin istəyinə nail ola bilmir. Get-gəldən bezən qazi evinin tikintisini davam etdirməyə başlayır və dərhal yuxarıda adlarını çəkdiyim vəzifəli şəxslər təkrar gəlirlər, deyilən rüşvət verMədən tikinti aparmağın mümkün olmadığını bildirirlər.

Əziz oxucu, ölkədə hər gün baş verən saysız-hesabsız rüşvətxorluq hallarının birinin necə baş verməsi barədə yaxından tanıdığım Qarabağ qazisinin başına məmurların açdığı rüşvət oyunu haqqında sizi qısa tanış etdim. İndi özünüz düşünün, Azərbaycanda hər gün genişlənməkdə olan rüşvətin qarşısını almaq mümkündürmü? Azərbaycanda rüşvət bəlasının qarşısını inzibati yolla almağın mümkünsüzlüyü artıq təsdiqini tapıb. Rüşvət və korrupsiyaya görə, həbs olunan məmurların bir qismi, Səlim Müslümov başda olmaqla, artıq həbsdən ev dustaqlığına buraxılıb, Mədəniyyət nazirinin rüşvət və korrupsiya əməlinə görə, həbs olunmuş müavini Bayramov isə əfvə salınıb. Hələ ləğv olunmuş sabiq MTN-çi milyonçuların həbsdən azad olunmasını və müsadirə olunmuş əmlakın məhkəmə tərəfindən özünə qaytarılmasını demirəm. Görünür, Azərbaycanda milyardları mənimsəməyin və altından çıxmağın çox əlverişli üsulları ilə bundan sonra da tanış olacağıq.

Azərbaycan dövlət orqanlarında maliyyə maxinasiyası aparmağın ən yaxşı yolu tenderlərdir. Müxtəlif mənbələrdən poçtumuza daxil olan məlumatlara görə, tender üsulu ilə mənimsənilən dövlət büdcəsi pullarının miqdarı hazırda milyardlarla olduğu bildirilir. Hesablama Palatasının dövlət orqanlarının cüzi bir hissəsini təşkil edən orqanlarda aparılan yoxlamalar nəticəsində milyonlarla büdcə pulunun yoxa çıxması, mənimsənilməsi faktları barədə açıqlamaları ilə tanış olduqca, insanda dövlət büdcəsinin düşünülmüş halda dağıdılması barədə təsəvvür yaranır. Dövlət büdəcəsindən hər il milyonlarla vəsait alan ***"AZAL"***, ***"AZƏRSU***, ***"AZƏRQOLD"***, ***"AZƏRAVTOYOL"***, ***"AZƏRENERJİ"*** və adını şəkmədiyim digər şirkətlərin Hesablama Palatasının yoxlamalarından kənar tutulmasının səbəbi cəmiyyətdə bu şirkətlərdə baş verən külli-miqdarda dövlət vəsaitlərinin mənimsənilməsilə izah olunur.

**Müstəqil iqtisadçı ekspertlərin rəyinə görə, Azərbaycanın dünya ölkələri arasında rüşvətxorluq reytinqinə görə, ən yuxarı yerlərdən birini tutmasının səbəbi rüşvət və korrupsiyanın ölkədə geniş yayılması ilə bağlıdır. Ekspertlərin rəyinə görə, ölkədə demokratik təsisatlar bərqərar olmayınca, azad iqtisadi bazar münasibətləri formalaşmayınca, inhisarçılıq ortadan qaldırılmayınca, ictimai nəzarət orqanlarının fəaliyyəti normallaşmayınca və demokratik idarəetmə tətbiq edilməyincə, ölkədə rüşvət və korrupsiya hallarına qarşı hazırkı üsullar ilə mübarizə müsbət nəticə verməyəcək.**

***Abbas***

# Ərdoğan, yoxsa Qılıcdaroğlu?

## Türkiyədə kimin prezident olmasının bizə heç bir fərqi yoxdur

Əslində bu müzakirə, mübahisə və seçki marafonu Türkiyə adlı dövlətin daxili işi, vətəndaşlarının iradəsi ilə həll ediləcək bir məsələdir. Lakin Azərbaycan vətəndaşlarının siyasi cəhətdən aktiv kəsimi özlərini Türkiyədəki seçki adlı ”qaynar qazan”ın içində hiss edir. Ona görə də cəmiyyətdə bizim iradəmizdən asılı olmayan məsələyə - Türkiyədəki növbəti prezident seçkilərinə reaksiyalar artmaqda davam edir. Hətta, bu prosesə münasibətdə Azərbaycan cəmiyyəti iki yerə parçalanıb - Ərdoğanın və Qılıcdaroğlunun tərəfdarları olaraq bütün platformalarda mübahisə aparırıq. Bundan isə Türkiyənin hər iki prezidentliyə namizəd lideri öz seçki marafonunda gen-bol istifadə edir.

Ümumiyyətlə, Türkiyədə bir neçə gündən sonra baş tutacaq növbəti prezident seçkilərinin tarixiliyini əsaslandıran əlamətlərdən biri də Azərbaycan faktorudur. Hətta, Rəis (R.T.Ərdoğan) öz rəqibinə qarşı Azərbaycan faktorundan ”qara piar” kimi geniş istifadə edir. Məsələn o, təbliğat xarakterli çıxışlarından biri zamanı vaxtı ilə SSRİ-dən Türkiyəyə mühacirət etmiş 146 nəfər cümhuriyyətçi azərbaycanlılarla bağlı bəzi gizli faktları açıqlayıb. Ərdogan bildirib ki, on illər boyu CHP-nin (Cümhuriyyət Xalq Partiyası) üstünü örtməyə çalışdığı bu hadisə istər türk, istərsə də azərbaycanlıların tarixinə acı hadisə kimi yazılıb. Prezident toplantı zamanı 1944-cü ildə baş vermiş “Boraltan körpüsü” faciəsindən danışıb. Belə ki, 1944-cü ildə - CHP hakimiyyəti dönəmində kommunist zül-mündən Türkiyəyə sığınan 146 azərbaycanlı Araz çayı üzərindəki Boraltan körpüsü üzərində SSRİ-yə təhvil verilmişdi. SSRİ yetkililəri isə həmin 146 nəfəri Araz cayının sahilindəcə, türk sərhədçilərinin gözləri önündə güllələmişdir. Bu hadisə 79 il əvvəl baş versə də, Rəis bundan öz rəqibinə qarşı ustalıqla istifadə edir. Halbuki Kamal Qılıcdaroğlu o hadisə baş verəndən dörd il sonra dünyaya gəlib.

Bu məqam Ərdoğanın seçki kampaniyasının strategiyasını təşkil edir. Hazırda Ərdoğan prezident seçilərsə qarşıdakı dönəmdə vətəndaşa nə verəcəyi barədə demək olar ki, heç bir vəd vermir. Ərdoğan komandası seçki təbliğat-təşfiqatı zamanı yalnız CHP-ni qaralamaq və Kamal Qılıcdaroğlunun verdiyi vədləri yalanlamaqla, orada türk dünyasına qarşı "xəyanət" axtarmaqla məşğuldur.

Məsələn, təbliğat çıxışında Qılıcdaroğlunun ”mən Türkiyəyə 300 milyard dollar sərmayə gətirəcəm” deməsi Ərdoğan komandasını hövsələdən çıxrıb. Komanda bir həftədir ki, Qılıcdaroğlunun bu ifadəsinin yalan vəd olduğunu sübut etməklə məşğuldur.

Ərdoğan komandasının Qılıcdaroğlu təbliğatında tapdığı sonuncu ”mənfi detal” Azərbaycan cəmiyyəti üçün xüsusi marağa səbəb olub. Belə ki, Qılıcdaroğlu bugünlədə Türkiyədən Çinə uzanacaq quru və ona paralel dəmir yolu nəqliyyat dəhlizi layihəsini nümayis etdirdi. Belə görünür ki, layihə Azərbaycandan yan keçəcək. Layihənin əsas prinsipi dənizləri kəsmədən onun limanlarını birləşdirməkdir. Belə olan halda Azərbaycan Orta Asiya və Üzaq Şərqdən Xəzər dənizinin su hövzəsi ilə təcrid edilibsə, bu layihə Azərbaycandan necə keçə bilər? İkincisi isə Azərbaycanın bu layihəyə heç ehtiyacı da yoxdur. Çünki həmin ölkələrlə Azərbaycnın daha ucuz başa gələn və daha etibarlı nəqliyyat dəhlizləri hazırda mövcuddur. Sadəcə Ərgoğanın təbliğat komandasının bir işarəsi Azərbaycan cəmiyyətini hərəkətə gətirib. Bu hərəkətlilikdən isə AKP ”məharətlə” istifadə edir.

Əvvəla, yuxarıda qeyd etdiyimiz kimi, Türkiyədə kimin prezident seçilməsindən asılı olmayaraq Azərbaycan-Türkiyə münasibətləri sürətlə inkişaf edəcək. Hətta, bu münasibətlərin konfederativ dövlət səviyyəsinə qədər yüksəlməsi mümkündür. Bunu yalnız ”Ərdoğan sevgisi” ilə bağlayanlar ciddi şəkildə yanılır. Bu iki dövlət strateji baxımdan bir-birinə möhtacdir. Bu gün Azərbaycandan daha çox bu birliyə Türkiyənin ehtiyacı var. Ona görə də heç kim düşünməsin ki, bu birliyi Ərdoğan yaradıb və onu özü ilə də apara bilər. Xeyir, bu birliyi heç kim dağıda bilməz, hətta, xarici ölkələr belə... Ona görə ki, Türkiyə ilə Azərbaycanı bir-birinə bağlayan əsas amil neft-qaz əsas ixrac boru kəmərləri və onlara paralel uzanan Bakı-Tiflis-Qars dəmir yolu xəttidur. Bu layihələr isə dünyanın ağası olan anqlosaksonların (Böyük Britaniya, ABŞ və Kanada) marağına uyğun bir nəqliyyat dəhlizidir.



Digər tərəfdən, Türkiyə beynəlxalq gücə malik bir qüvvəyə çevrilmək üçün həm siyasi, həm mədəni, həm də coğrafi baxımdan türk dövlətləri ilə birləşməlidir. Coğrafi baxımdan bu bağlantının yeganə etibarlı yolu isə hazırda Azərbaycan üzərindən keçir. Qılıcdaroğlunun təklif etdiyi, Azərbaycandan yan keçəcək nəqliyyat dəhlizi isə ən azı İran üzərindən keçməlidir ki, bu amil layihənin indiki şəraitdə etibarlılığını ciddi şübhə altina alır.

O ki qaldı ”biz qardaşıq”, ”Bir millət, iki dövlət”ik kimi ifadələrə, bunlar hamısı siyasi rəssamlıq bəzəyi, siyasətə vurulan naxışdır. Osmanlı türkləri bütün türk xalqları kimi bizə yaxındır, üstəlik bizim Türkiyə ilə dövlət maraqlarımız daha çox üst-üstə düşür. Məsələ bu qədər sadədir.

Bəzən vətəndaşlarımız düşünür ki, 44 günlük müharibədə Ərdoğan başda olmaqla Türkiyə iqtidarı bizə əvəzolunmaz dəstək verib, biz də onun müqavilində bu seçkidə Rəisə töhfə verməliyik. Əslində isə Türkiyənin bizə verdiyi dəstək onun xalqının iradəsinin və dövlətin maraqlarının ifadəsidir. Hakimiyyətdə başqa birisi olsaydı o, da fərqli davranmazdır. Ona görə də biz bu dəstəyə görə Ərdoğana və ya digər fərdlərə deyil, türk xalqla töhfə verməliyik. Yəni bütün məsələlərdə xalqın iradəsinə dəstək verməliyik, ona hörmətlə yanaşmalıyıq.

Yadınızdadırsa Əbülfəz Elçibəy 1992-ci ildə - türk xalqının ünlü liderlərindən biri olan Turqut Özal iqtidari dönəmində ermənilərin mühasirəsində qalmış əhalini xilas etmək üçün Türkiyədən iki helikopter istəmişdi. Bütün dünya türklərinin sevimli oğlu Elçibəyə Türkiyənin cavabı mənfi olmuşdur. Çünki ordusu tam formalaşmamış, heç bir ciddi gücü olmayan, müstəqilliyi hələ şübhə doğuran Azərbaycan heç kimə, o cümlədən də qardaş Türkiyəyə lazım deyildi.

Türkiyədəki seçkilərə gəldikdə isə biz əsasən qardaş Osmanlı (və ya səlcuq) türklərindən ibarət olan ölkə vətəndaşlarının iradəsi ilə keçrilən seçkinin nəticələrinə hörmətlə yanasmalıyıq. Hər şeydən əvvəl dövləti idarə edən iqtidar vətəndaşların iradəsi ilə formalaşmalıdır ki, yeni hökumət komandası vətəndasların marağını ifadə etsin.

Fikrimizcə, bu seçkilərdə Türkiyə vətəndaşları 20 il hakimiyyətdə qalmış Ərdoğan iqtidarı ilə vidalaşa bilsə bu daha yaxşı olar. Çünki iqtidar üçün 20 il hakimiyyət diktaturaya yuvarlanmağa kifayət qədər əsaslar yaradır. Bu seçkilərdə Türkiyə Ərdoğanı yola sala bilməsə, ölkədə sülalə hakimiyyəti layihəsi işə düşəcək!



Akif Nəsirli

### ABŞ-dan Türkiyə açıqlaması



***“Kim seçilir-seçilsin, yeganə ümidimiz...”***

**ABŞ mayın 14-də Türkiyədə keçiriləcək seçkilərin nəticələrinin ikitərəfli münasibətlərə təsir etməyəcəyini açıqlayıb.**

Bu barədə ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Vedant Patel jurnalistlərə bildirib.

Patelə ***“Həftəsonu Türkiyədə keçiriləcək prezident və parlament seçkiləri Türkiyə-ABŞ münasibətlərinə necə təsir edəcək”*** sualı verilib.

ABŞ rəsmisi çıxışına “Təsir etməyəcək” deyərək başlayıb: ***“Türkiyə xalqı tərəfindən hansı hökumətin seçilməsindən asılı olmayaraq, birlikdə, bu əlaqələri dərinləşdirməyə, bir sıra əməkdaşlıq istiqamətləri və ortaq prioritetlər üzərində işləməyə davam edəcəyik”.***

Patel Türkiyənin mühüm NATO müttəfiqi olduğunu və ABŞ üçün vacib olan bir sıra məsələlərdə əvəzsiz rol oynadığını söyləyib: ***“Qara dəniz taxıl anlaşmasının əldə edilməsində və həyata keçirilməsində Türkiyənin oynadığı rolu qeyd etmək istərdim. Onların liderliyi və birləşdirici rolu sayəsində Rusiyanın taxıldan silah kimi istifadə etməsinin qarşısını alan mexanizm var.***

***Seçkilərə gəlincə, ABŞ seçkilərdə tərəf tutmur. Bizim yeganə ümidimiz demokratik prosesə əsaslanan azad və ədalətli seçki görməkdir”.***

# Ehmallı dilənçi

## İstehzanın islahedici qüvvəsi

**Atalarımızın dediyi kimi, insan yer üzünün bəzəyi, gor evinin zinətidir. Susuz dəniz, səmasız torpaq olmadığı kimi, insansız da yer üzünün yaraşığı olmazdı, deyirlər. Hətta materiyanın mövcudluğunu canlılar arasında daha çox dolğunluğu ilə duyan da elə məhz, insanmış.**

Amma bu qədər keyfiyyətə sahib varlığın özünüdərki bəzən hansısa səbəbdən, nədənsə gecikir, gecikdikcə də həyata, insanlığa, cəmiyyətə zərərli olur...

Maraqlısı budur ki, yanlışlıqlara yol verən də elə insanın özüdü, onun aradan qaldırılması üçün çaba göstərən də. Biri digərinin qüsurlarını düzəltməklə təyinatlı, hökmlüdü. Təzadlıdı, deyilmi?

Məncə rəhmətlik Qasım bəy Zakir elə məhz bu cür təyinatlılardan idi. Əslində Onun haqqında keçmiş zamanda yazmağa heç əlim gəlmir. Ona görə ki, yaradıcılığı bütün dövrlər üçün aktualdı. Belə bir şəxsiyyət haqqında keçmişdə danışmaq çox çətindi. Hara baxırsan elə bilirsən ordadı, yaxınındadı, çünki hər an, hər yerdə əsrlər əvvəl deyilmiş, yazılmış sözlərinin, fikirlərinin izini görmək olur. Heyif ki, indilikdə bu mütəfəkkirin yaradıcılığından çox da geniş, Ona layiq şəkildə bəhs edə bilməyəcəm, çünki başqa məsələyə köklənmişəm. Dediyim kimi, sadəcə günümüzün reallıqlarını öz dövründən ta günümüzədək görürmüş kimi əks etdirdiyindən, məsəl çəkəcəyim ən uğurlu, ən yaxşı tənqidçinin Zakir bəy olduğu qənaətinə gəldim.

Şairin yaradıcılığı ilə yaxından tanış olanlar kökü real həyata bağlı olan satira mövzusunun Onun qələmilə hansı yüksəkliyə qalxdığını, mühitin eybəcərliklərini ayna kimi necə əks etdirdiyini yaxşı bilirlər. Ən əsası da odur ki, onlar, o satiralar əsarət, avamlıq və zülmü kəskin tənqid və ifşa etməkdə bu gün daha çox əhəmiyyətlidi. Bəzən adama elə gəlir ki, Allah bu insanı sanki ictimai çirkinlikləri ifşa etmək üçün yaradıbmış. Baş verənləri bütün eyibləri ilə açıb göstərmək, həqiqəti sənət dili ilə söyləmək üçün müxtəlif ədəbi yollar, vasitələr axtarması Onu elə bir zirvəyə qaldırıb ki, əbədiyaşar kəlməsi bunun yanında kölgədə qalır.

Həqiqəti örtülü şəkildə, hadisə və əhvalatları başqa dövrdən və məkandan bəhs edirmiş kimi, ustalıqla, təmsil, nağıl, rəvayət vasitəsilə elə söyləyib ki, bu nadir bacarıq bədii üsulların bəlkə də ən gözəli idi desəm, yəqin ki, yanılmaram.

Q.Zakiri oxuduqca gülüşün, istehzanın islahedici qüvvəsinə adam bir daha inanır. O, müsbət fikirlərinin həyata keçməsində istehzanı çox fəal bir vasitə kimi qiymətləndirirdi. Bilirsiz bu nədən irəli gəlirdi? Ona görə ki, bəy zəhmətkeş kütlələrin arzularına uyğun iş görürdü, onların həm kədərini, qəmini, həm də şadlığını da özününkü hesab edirdi. Satiranı əsla gülüş hədəfi kimi deyil, çox uca tuturdu.

**Keçək mətləbə.** Dünyanın harasında olursan ol, mədəni olmaq qədər yaxşı heç nə səni rahat edə bilməz. Mən ondan yaxşı heç nə tanımıram, bilmirəm. Bir sözlə mədəni, mərifət dolu insan görəndə, tanıyanda həmin günü sevindiyimdən az qalıram qol qaldırıb oynayam. Elə bir toxluq hissi yaranır ki, sanki dünyanın bütün nazı-nemətlərini dadıb doymuşam ...

Gələk digər bir mətləbə. Əyninə hicababənzər libası taxıb, qucağına da kimə məxsus olduğu dəqiq bilinməyən ***(bəzən həmin uşaqları elə həmin məqsəd üçün oğurlayırlar)*** körpə uşağı alıb, metro giriş-çıxışında əyləşən qadınlara. Məgər dövlətdən bir sığınacaq istəsələr onlara qalmaq üşün təklif olunacaq yer və dolanışıq üçün alacaqları azçox sosial yardım oturduqları o soyuq daş üstündən yaxşı deyilmi? Əlbəttə yaxşıdı, sadəcə onların niyyəti pisdi, vərdişləri bunadı, bulunduqları o yaşam tərzini daha uyğun bilirlər. Kübarlıq hissi onlara yaddı, mədəni ola bilmirlər, əzilməkdən zövq alırlar. Bir sözlə, bərbad insan obrazı...

O ifadəni sevməsəm də bildiyim qədər onların bir adı var, dilənçi. Bəli, məhz dilənçi. Bəzən qapılarımızı ehmalca döyürlər, bəzən yolda qəfil qarşımızda peyda olub "sən balaların canı, Allah yolunda kömək elə" deyirlər. Biz də istər-istəməz Allah adının xatirinə əlimizi cibimizə aparırıq, yardım etmək üçün. Bəzilərinin əyin-başları kirli, bəzilərini əli çəlikli görmək olur... Adətən müxtəlif xalqlardan olurlar, hətta inanmıram ki, təmiz türk oğlu türkdən olan dilənə bilə, bunu əsla nə qəbul edə, nə də inana bilmirəm.

Ehmallı, xəfif təbəssümlə, yaxud utana-utana əlini açıq şəkildə köksünə yaxın tutub yardım istəyənlər də var. Beləleri adətən rus, tatar xalqlarından olanlardı. Yəni ac olsalar da mədəni davranışlarını önə çəkirlər. Sanki, "diləndiyimə baxma, qürurum yerindədi" mesajını verirlər.



Yer üzündə millətlərin, xalqların sayı çoxdu. Onların kiminə yaxşı, kiminə xoş olmayan saysız özəllikləri var. Almanların da həmçinin. Amma mənim bu xalqa rəğbətim var. Yəqin bunun keçmişimizlə sıx əlaqəsi var. Elə tarixə nəzər salanda da onların bizim elm və mədəniyyətimizin inkafındakı töhfələrini görmək olur. Düşünürəm ki, hələ onlardan öyrəniləsi çox şeylər var...

Almaniyada Münhen (alm.München) adlı gözəl bir şəhər var. Berlin və Hamburqdan sonra üçüncü ən böyük şəhərdi. Əhalisi cəmi 1,3 milyon olan bu şəhər "İzar" çayının sahillərində, Alp dağlarının ətəyində yerləşir. Şəhərin meşə zolağının girişində bir tablo var. Tabloda bir çox məlumat tipli yazılarla bərabər, belə bir ifadə keçir: ***"Əsl mədəniyyət ac, susuz, köməksiz qalanda üzə çıxır."***

Bəli, insanın ac-yalavac məqamında onun nəyə qadir olduğunu bilmək olur, əsl siması onda üzə çıxır. Atam danışırdı ki, hələ İkinci Dünya Müharibəsi illərində yəhudi xalqlarından olan əsirlərin saxlanıldığı düşərgələrində oğurluq olmazmış. Deyirdi yemək oğurluğunun yəhudilər olan düşərgələrdə qeydə alınmaması onların bir xalq kimi aliliyini, mənəvi zənginliyini, harda olmasından asılı olmayaraq yüksək daxili və zahiri mədəniyyətinin göstəricisidir. Rəhmətlik atamın dediyinə görə, hətta ölüm acılığına dözən yəhudi xalqı heç vaxt düşərgə dostunun yeməyinə göz dikməyib. Dediyim kimi, qürur, zəngin mənəviyyat buna yol verməyib.

Bəli, ölkəmizdə yaşayan xalqların çatışmayan, kasad cəhətləri məhz, həmin o qürur, o mədəniyyətin olmamasıdı. Bunları yazmaq belə, necə çətindi, bir bilsəniz... Bunlar pulnan alınan, maddi zənginliklə ölçülən şeylər deyil.

Demək istədiyim budur ki, paytaxt şəhərimizin insan sıxlığı olan yerlərində, küçələrində əl açıb, dil töküb dilənən soydaşlarımızla da, başqa xalqlardan olanlarla da, məsələn rus nənələrlə də qarşılaşırıq. Bizimki sayılanlar, danışığı, dili, dərisinin, saçının rəngi (dəqiq deyil hardan gəlir kökləri, soyları) bizə bənzəyənlər adamın üstünə hücum edirmiş kimi, bəzən də borcunu geri istəyirmiş kimi elə hücum edirlər ki, adam əsəbini zorla cilovlayır. Digər millətdən sayılanlarsa gediş-gəlişə mane olmadan, sakitcə bir küncdə əllərini irəli uzatmadan, elə köksündəcə tutub dururlar. Belələrini görəndə kaş dilənəndə də mədəni dilənməyi bacaraydıq, deyirəm.

Çünki abırsızlıq, mədəniyyətsizlik insanı insanlıqdan çıxaran şeylərdi. Bizlər insan, fərd, xalq, millət olaraq, keçmiş çətinlikləri arxada qoyaraq, pillə-pillə inkişaf edib yaşadığımız əsrə çatmışıq. Daha gəlin, bəzi ünsürlərə görə mənəviyyatımızın korlanmasına yol verməyək. Bu bizi narahat etməyə bilməz. Ona görə ki, insan cəmiyyətdə formalaşır, ictimai münasibətlərə girərək fəaliyyət göstərir.

Biz bu cəmiyyətin bir üzvü, dövlətin vətəndaşı. nümayəndəsiyik. Təbii ki, burada baş verənlərin xarakterindən və səviyyəsindən asılı olmayaraq, daha çox diqqətçəkən hadisələr bizi narahat edir, etməlidir də. Belə məsələlərə tənqidi yanaşmağımız çox vacibdi. Bütün bunlar hər birimizin maraq dairəsində, diqqət mərkəzində olmalı, ona biganə qalmamalıyıq. Sanki bəzən bu məsələlərə seyirçi münasibət bəsləyirik.

Artıq belə məsələlər bizi düşündürməli, səbəblərini və həlli yollarını axtarıb-tapmalıyıq. Ya da ki, yeni bir Qasım bəy doğulmalıdır.



**Şahnaz Salehqızı**

## "Bulaq suyu" adı altında satılan məhsul saxta çıxıb

Qida Təhlükəsizliyi Agentliyi (AQTA) istehlakçı şikayəti əsasında Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsi, Biləcəri şosesi, 1 May küçəsində yerləşən "ÇEMP Su" MMC-yə məxsus su emalı müəssisəsində plandankənar yoxlama keçirib, nöqsanlar aşkarlanıb.

Bu barədə AQTA-dan məlumat verilib.



Bildirilib ki, baxış zamanı müəssisədə qablaşdırılan "ÇEMP Su" əmtəə nişanlı suların etiket məlumatlarında suyun mənbəyinin "Böyük Qafqaz sıra dağlarının bulaqlarından ekoloji təmiz su"dan əldə edildiyi qeyd olunsa da, mərkəzləşdirilmiş su sistemindən gələn suları filtr etməklə qablaşdırıldığı müəyyən edilib. Eyni zamanda, müəssisənin qida sahəsində normativ hüquqi aktların tələblərinə cavab vermədiyi, qanunvericiliyə zidd olaraq məhsulların üzərində "müalicəvi" sözünün qeyd olunduğu, ehtiyat su çəninin, filtrlərin, qablaşdırma avadanlığının müvafiq qaydalara uyğun təmizlənməsi, mexaniki filtrlərin, kömür və qum filtrlərinin dəyişilməsi ilə bağlı qeydiyyatın aparılmasına dair təsdiqedici sənədlərin olmadığı, qida məhsulları ilə təmasda olan avadanlıqların yuyulması üçün nəzərdə tutulmayan kimyəvi maddədən istifadə olunduğu aşkarlanıb.

Nöqsanlarla bağlı qanunvericiliyə uyğun olaraq müəssisədə suyun emalının qadağan edilməsinə dair məhdudlaşdırıcı qərar qəbul olunub və müəssisə rəhbəri barəsində inzibati protokol tərtib edilib. "ÇEMP Su" əmtəə nişanlı sudan nümunələr götürülərək müayinələrin aparılması üçün Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim edilib. Sınaq nəticəsi barədə əlavə məlumat veriləcək.

Agentlik su satışı ilə məşğul olan ticarət şəbəkələrinə bir daha xəbərdarlıq edərək bildirir ki, "Qida təhlükəsizliyi haqqında" Qanunun müvafiq tələblərini kobud şəkildə pozaraq müvafiq normalara cavab verməyən bu kimi məhsulların satışı dayandırılmalı və geri çağırılması ilə bağlı müvafiq tədbirlər həyata keçirilməlidir. Əks halda, həmin suların satışını həyata keçirən ticarət müəssisələri barədə qanunvericilik çərçivəsində inzibati tədbirlər görüləcəkdir.

İstehlakçılardan hər hansı uyğunsuzluq və şübhəli hallar aşkar etdikdə, dərhal Agentliyin "1003-Çağrı Mərkəzi"nə məlumat vermələri xahiş olunur.

# Gələcəyin illüziyası

## Və ya cavabsız sualların labirinti ...

Kəskin söyləsək, ailə institutunun olmadığı, ya da az olduğu (?) məmləkətimdə "kiçik dövlət"lərin savaşı, daha dəqiqi, qızğın mübarizəsi gedir. Bəli, müqayisə istənilən halda xoşagələn olmasa da bunu hələ ən yumşaq formada söylədim. Bəllidir, bu mübarizə və "savaş"lar öncə müzkirələr formatında olmalıdır. Olmalıdır, olmalıydı. Amma olmadı. Yaxında, bir az uzaqda, lap çox uzaqlarda olanlarda da heç nə ideal, yaxud göründüyü kimi deyil. İndi Şekspirə istinadın da mübahisəli yanaşıldığı deyimdən başqasını sitat kimi gətirməkdən başqa əlac yox. Beləcə, dünyamız boyda bir "səhnə"nin "aktyorlar"ının oynadığı rollar çoxdandı öz ampluasından çıxıb. O rolun adı nədir, görəsən?

Özümüzü çətinə salmayaq, heç uzağa da getməyək. Yeknəsəkliyin günümüzə, saatımıza hopduğu bir dünyada həyati oyunçuların rəngarəng, rəngbərəng roluna tamaşa edin...

Bu dünya tamaşasında hərənin öz rolu olsa da, heç kim özünə tapşırılanı oynamır. "Qaydasız döyüş"ün səhnədən həyata tətbiqi də daha kimsəni təəccübləndirmir. Təəccüblənmək, məəttəl qalmaq ifadəsinin zatən unudulduğu, daha dəqiqi, yada salınmadığı



dünyamızda gözləntimiz nə?!

Gözləntimiz çox idi, aza qane olduq. Elə təəccüb hissinin öldüyü də ondan başladı. Azalanlar çoxluğu "dəfn" etdikcə, mahiyyətini də itirməyə başladı. Günümüz-saatımız matəm havalıdısa, onun mafəsini kimin gətirməsinin nə əhəmiyyəti, hesabı, sorğu-sualı?

Kimi dindirsən ümidsiz. Bugünün təsvirində sabahından nagüman olanların məmləkətində gələcək adlı anlayışa ironiya, hətta kinayə ilə gülə bilənlər çoxdu. Gələcək? Nədir o? Suala sualla cavab verənlər dünyasında mənzərənin özü susmağı haqq edir. Zatən, susmağın əzabını yaşayanların dünyasına "xoş gəldin!", insan! Həyata, dünyaya, haqq etdiyinə heç xoş görünmədin...

İrəliyə, inkişafa, adı gələcək adlanan hansısa bir anlayışa bəslənən ümidlər sonunda deyil, elə yerindəcə ölməyə layiqdir. Gələcəyə hazırlanan zəmin yoxsa, boşuna bəslənən, gözlənən ümidin təsəllisini vermək çox lüzumsuz...

İrəliyə atılan addımlarla da geriyə düşmək olarmış...

O geridə qalanların dünyasına bugünün geridəqalmışlarının prizmasından baxaq. Nə qədər inkişaf etsə də, irəliyə atladığını zənn etsə də, bir o qədər də aşınanları, hər mənada çaşanları deyirəm. Mənəvi zənginliyi maddiyyatın qüdrətinə qurban verənlərin amansız qəhqəhəsində o varidat ən az, ən adi, minimal "qiymətli kağız" qədər dəyərləndirilmədisə... Bu, çağrılmış bayatıdır, əlbəttə.

Məhz mənəvi zənginliyin hesabına bugünədək qərar tutmuş, var olmuş dünyamızda indi ona əks arqumentlər gətirənlər "at oynadır"sa, əcəba, sabahı kimin ümidinə qoyub, buraxıb gedək?

Getməyə yol həmişə var, mahiyyətində hər nə olsa da. Bəs o yolu tutub gedənlərin hansının sırasında olmaq, kimin sayını artırmaq, hansı yolda qalmaq?

"Sual budur, bu"! Cavabı naməlum qalanların, bəlli olmayanların sırasında olmaq istəyənlər çoxmudur, yoxsa yox? Susanların məmləkətindəkilərin az qala eyni simada, sifətdə "var olması"nı, haqsızlıqla "dinc-yanaşı" yaşamasını arzulayanlar bəs?

...Ailə institutlarının olmadığı, yaranmadığı, yaranacağına şübhəylə yanaşılan məmləkətdə sabaha dəyərsizlər, mənəviyyatsızlar hazırlanır. Ki, bugünün "dəyəri"ni gələcəyə daşısın.

Yükünüz yüngül olsun!

Şərhisə susanların məmləkətində qiymətliləri hər gün azalanlara, əks arqumenti hazır günbəgün çoxalanlara buraxaq...



Nigar Orucova

# Arada qanunlara nəzər salıb, deyilənlərə riayət edin

## Ekrandan bozbaş iyi gəlir

Hər zaman olduğu kimi, bu gün də böyük təsir vasitəsi kiçik işlərlə məşğuldur.

Vaxtaşarı qınaqlara, tənqidlərə, tövsiyələrə baxmayaraq, televiziyalarımızda cəmiyyətin mənəvi inkişafına mənfi təsir edən verilişlərin sayı artır.

Maraqlıdır ki, tv rəhbərləri özləri də bilirlər ki, bayağı verilişlərlə televiziya reytinqini yüksəldə bilməz. Məsələnin təəcüb doğuran tərəfi də var. Elə bil bu rəhbərlər heç papaqlarını qarşılarına qoyub fikirləşmirlər ki, nə sənət yüngül musiqidən ibarət deyil, nə də, bu ölkə müstəqilliyini ona görə əldə etməyib ki, böyük təsir vasitəsi olan televiziya səviyyəsiz müğənniciklərin reklamına xidmət edə, vaxtını keçirə. Sənət ədəbiyyat, heykəltəraşlıq, rəssamlıqdır, musiqi adı altında lazımsız dınqıltının təqlidi deyil.

Heç olmasa arada bir qanunlara nəzər salıb, deyilənlərə riayət oluna...

Milli Məclisin hazırladığı qanunda göstərilən müddəalar həmin qurum tərəfindən telekanallara göndərilməlidir. Və «Audiovizual Şurası» da televiziyalara bildirmir ki, gələcək nəslin inkişafı üçün maariflǝndirici verilişlərin sayı artırılsın. "Çal oynasın Əjdər əmi"yə bənzər "musiqi yarışmaları"na son qoyulsun. Biz heç, istədiyimizi görə, eşidə, ala bilmədik, heç olmasa gələcək nəslə yazığınız gəlsin, belə inkişaf olmaz! Yarışma keçirməyə bu qədər meyillisinizsə, onda qoy bu yarış millimənəvi dəyərlərimizin təbliğatı istiqamətində keçirilsin.Vətənpərvərlik ruhunda verilişlərin sayı artırılsın. Daha o verilişlər millət yatandan sonra, gecə saat 2-də, 3-də verilməsin. Bunun da xeyiri yoxdur.

Amma nə yazıqlar, hələ ki, görünən odur ki, bu sahəyə rəhbərlik edənlərin məqsədi xalqa xidmət etmək deyil. İllərdir bu mövzunun müzakirəsi hökumət masasına qədər gedib çıxsa da, vəziyyət dəyişməz olaraq qalır.

Dərd bir olsa nə var ki... acınacaqlı tərəflərimizdən biri də televiziyalarımızda öz məhsulumuzun olmaması, ayrı-ayrı ölkələrin tanınmış televiziyalarının sosial xarakterli verilişlərinin təqlid edilməsidir. Öz məhsulumuz reytinq xatirinə ailə - məişət yükünün ağırlığından doğan gözü yaşlı insanların ekranlara çıxarılması, acı gülüş doğuran şou xarakterli şit verilişlər,



heç bir məna kəsb etməyən "tamaşalar"dır. Azərbaycan ailəsindəki qadını yalnız ərinin üstünə çəmkirən obrazda göstərən ssenarilər əsasında çəkilən seriallar isə içimizdəki erməni xislətlilərin məhsuludur. Bunların hamısı birbaşa milli - mənəvi dəyərlərimizi kölgədə qoymağa hesablanmış əməllərdir.

Hələ ekranları zəbt etmiş "həftəbecər kulinarlar"ın bozbaşı, dolmanı, küftəni təqdim etməklərini demirəm, sanki beş min illik tarixi olan Azərbaycan xalqı mətbəxindən bixəbərdir.

Etiraf edək ki, qonşu dövlətlərin televiziyalarını izləyəndə ruhumuz dincəlir. Ona görə ki, burada ixtisaslaşma var, müxtəlif sahələrin ətrafında aparılan tədqiqatlara uyğun təqdimat var.

Məsələn, qardaş Türkiyənin televiziyalarında bu gün qlobal məsələlərin təhlili gedir. Bu təhlillərə baxandan sonra, Azərbaycanda elmli, təcrübəli, yol göstərən işıqlı insanların olmasına şəxsən şübhəylə yanaşıram. Bilirsiz bu şübhə hardan doğur? Bu gün müəllimin, həkimin və bütün peşə sahiblərinin hər birinin mükəlləf əsgər olması gərəkən bir vaxtda, insanların hər an xəbər gözlədiyi televiziya ekranlarını ziyalılarımız, zəngin dünya görüşlü insanlarımız deyil, danışığını, hərəkətini, oturuşunu, duruşunu, geyimini normal qaydada tənzimləyə bilməyən "həftəbecər gülbiçələrin" zəbt etməsindən doğur... Bax, dediyim şübhənin kökü burdadır. Bu bizim faciəmizdir!

Bəli, hələ də Azərbaycan televiziyasında bəşəriyyətin bu günü, sabahı və gələcəyi ilə bağlı dünya səviyyəli alimlərin fikirlərini özündə ehtiva edən analitik verilişlərimiz yoxdur. Oxşadırlar, lakin yeniliyi ehtiva etməyən, çeynənmiş şablon kəlimələri əzbərləmiş, gözümüzü mazol etmiş bir sıra insanların məzmunu bəlli olmayan fikirləri artıq insanları çoxdan yorub...

Bu da bizim faciəmizdir!

Yenə qonşulardan misal gətirmək məcburiyyətindəyəm. Onların şousu-moosu ayrıca adıməlum kanallarda təqdim olunur. Bizdə isə kanallar universaldır, guya hər şey var, amma əslində heç nə yoxdur. Biz yola gedərik, lakin unutmayaq ki, çəkilməsi ağır olan dərdimiz gələcək nəsllərin üzərindədir.

Televiziyanın qəzet və radiodan fərqi vizual olaraq, xəbər etmədən bütün evlərə daxil olmasıdır. Sürətlə inkişaf edən texnoloji dəyişikliklər dünyanı ovucumuza sığacaq qədər kiçildib. Artıq bu informasiya vasitəsi qonaq "batman"ından çıxmış ailə üzvü kimidir.

Əgər bu vasitə evimizə qədər gəlibsə, deməli ona olan tələbat ödənməlidir. Amma məsələnin digər tərəfi var. Televiziya tələbatı ödəməyə cəhd etdikcə, yaradıcılıq mühitinin səviyyəsi aşağı düşür, bayağılıq artır, nəticədə idarəolunmaz xaos yaranır. Səbəb tamaşaçı auditoriyasının yaş fərqi, cins fərqi, sosial statusudur və sairə.

### Təsirin yanlış üzü...

XX əsrin ən böyük icadlarından olan televiziyada təqdim olunan proqramlar istər böyüklərə, istər uşaqlara bir çox tərəfdən təsir etmə gücündədir. Əslində fikirim burada olan bütün proqramları zərərli olaraq dəyərləndirmək deyil.

Məsələn, elə serial var şiddət xarakterlidir, gənclərdə mənfi hissləri oyadıb hərəkətə gətirir, nəticə göz qabağındadır, cəmiyyətdə şiddət artmaqdadır.

Əvvəllər senzura adlı dövlətin kütləvi informasiya vasitələrinin məzmunu və yayılması üzərində nəzarət edən bir qurum var idi.

Bu, söz, mətbuat və informasiya vasitələrinin dövlət, ictimayyət və və digər ictimai müəssisələrin maraqlarına uyğun məhdudlaşdırma forması kimi qəbul olunsa da, indiki tv məkandakı özbaşınalıqdan çox-çox yaxşıdır.

Hamımız bilirik ki, filmlərdəki qəhrəmanların milyonlarla gəncin xarakterini formalaşdırmasında güclü təsiri var. Bu gün əgər rola girmiş modelin, aktyorun alovlu və saxta həyatı reklam olunub normal həyat tərzi olaraq göstərilirsə, Azərbaycan ailəsinin pul, intiqam və mövqe üçün hər şeyi riskə atmasına da adi hal kimi baxılacaq. Reytinqin yüksəlməsinə xidmət edən bu qeyri-adi və əxlaqsız münasibətlər, təəssüf doğurur. Həyatın ssenarisi ilə, filmin ssenarisini dəyişik salanların vay halına!

Nəzarətin olmamasından həvəslənən istehsalçılar, bilə-bilə ən absurd ssenariləri tətbiq edərək ölkəmizə, xalqımıza, dəyərlərimizə böyük ziyan vururlar. Ailə anlayışının müqəddəsliyi ölkəmizi yaşadan ən böyük sütundur, bunu unudan bizdən deyil!

*Şahnaz Salehqızı*

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti

**- Əziz bacılar və qardaşlar.**

**Bu gün Azərbaycan Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Bildiyiniz kimi, 2023-cü il mənim Sərəncamımla "Heydər Əliyev İli" elan olunmuşdur. İlin əvvəlindən bu günə qədər və ilin sonuna qədər həm ölkəmizdə, həm müxtəlif ölkələrdə bir çox tədbirlər keçirilmişdir və keçiriləcəkdir. Azərbaycan öz böyük oğlunun xatirəsinə böyük hörmətlə yanaşır.**

Mən bu təbrik müraciətimi Bakıdan da edə bilərdim. Amma hesab etdim ki, mən bu gün burada olmalıyam, Şuşada olmalıyam, bu binanın önündə olmalıyam. Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax, bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişlər. Bu binanın damında Azərbaycan Bayrağı qaldırılmışdır və Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hissəsi idi. Bildiyiniz kimi, ondan bir gün sonra Ermənistan kapitulyasiya aktına imza atmışdır.

İl başlayandan Ulu Öndərin həyatı, fəaliyyəti ilə bağlı bir çox tədbirlər keçirilir, müzakirələr aparılır. Eyni zamanda, hesab edirik ki, biz bu yubiley tədbirlərindən gələcəyə baxışı daha da dəqiqləşdirmək üçün istifadə etməliyik. Mən mayın 2-dən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurdayam, bir çox tədbirlər keçirilmişdir, 10 kəndin təməli qoyulmuşdur, bir çox açılışlar həyata keçirilmişdir. On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir. Bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır.

Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik.

Heydər Əliyev bütün dövrlərdə öz doğma xalqına sədaqətlə xidmət etmişdir. Sovet Azərbaycanı dövründə - 1969-82-ci illərdə Azərbaycanı ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə gətirib çıxarmışdır. Müstəqil Azərbaycanın sənaye və iqtisadi potensialı məhz o illərdə formalaşmışdır. Məhz o illərdə yetişmiş kadrlar müstəqil Azərbaycanda və bu gün də fəaliyyət göstərərək bizim ümumi inkişafımızı təmin edirlər.

Heydər Əliyev 1982-87-ci illərdə Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun üzvü və Sovet Hökuməti sədrinin birinci müavini kimi daim Azərbaycana öz diqqətini, qayğısını göstərirdi. Məhz bu qayğı və diqqət nəticəsində Azərbaycan o illərdə də uğurla inkişaf edirdi. Azərbaycan xalqının faciələri Heydər Əliyevin siyasi hakimiyyətdən getməsindən sonra başlamışdır. 1987-ci ildə istefa verməsindən iki həftə keçməmiş erməni millətçiləri və onların sovet iqtidarında olan himayədarları ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırmışdır və Azərbaycan xalqının faciələri o gündən başlamışdır.

Şübhə yoxdur ki, əgər Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər. Həm erməni millətçiləri, həm də ovaxtkı Azərbaycan rəhbərliyində təmsil olunmuş milli satqınlar faktiki olaraq birləşərək Heydər Əliyevə qarşı çirkin şər, böhtan kampaniyası aparmışdılar. Heydər Əliyevin gücü, müdrikliyi, ümumiyyətlə, Heydər Əliyev amili Azərbaycanı bir çətir kimi qoruyurdu. Baxmayaraq ki, siyasi fəaliyyətdən kənarda qalıb, amma Ulu Öndər hər zaman Azərbaycanın maraqları ilə yaşayırdı, ürəyi Azərbaycanla bir döyünürdü və xalqımız üçün ağır günlərdə - 20 Yanvar faciəsindən sonra yenə də xalqımızın haqq səsini dünyaya məhz o çatdırmışdır. Yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək öz haqq səsini ucaltmış, sovet hökumətinin, Sovet İttifaqının rəhbərliyinin bu qanlı əməlini pisləmiş və bu qırğınla bağlı dünyaya bəyanat vermişdir. Mən onun yanında idim, o günü yaxşı xatırlayıram, həm faciəvi gün idi, eyni zamanda, qürurverici bir gün idi. Moskvada yaşayan azərbaycanlılar daimi nümayəndəliyin önünə toplaşmışdılar və Heydər Əliyev binaya yaxınlaşanda sanki bir canlı dəhliz açılmışdı. Baxmayaraq ki, o, bütün vəzifələrdən çıxarılmışdır, ona qarşı Azərbaycanda ovaxtkı rəhbərlik tərəfindən çirkin kampaniya aparılırdı, sovet mətbuatında da çirkin kampaniya aparılırdı, ancaq Azərbaycan xalqının qəlbində o, daim böyük lider kimi yaşayırdı.

Bu tarixi çıxışdan sonra, - çünki Sovet İttifaqının dağılmasına hələ iki ilə yaxın bir vaxt var idi, heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı iki ildən sonra dağılacaq, yəni, bu bəyanat böyük cəsarət tələb edirdi, əsl vətənpərvərlik tələb edirdi, - təbii ki, bu bəyanatdan sonra Sovet İttifaqının repressiv maşını Heydər Əliyevə qarşı geniş hücuma keçmişdir və onun Moskvada qalması artıq mümkün deyildi. Bir neçə aydan sonra - 1990-cı ilin iyul ayında o, Moskvadan Bakıya gəlmiş, ancaq ovaxtkı Azərbaycan rəhbərliyi onu da ona çox görmüşdür. Onun faktoru, güclü lider olması görünür ki, onları yaman narahat edirdi və faktiki olaraq, ona edilən təzyiqlər nəticəsində o, doğulduğu şəhərə - Naxçıvana getmiş və orada yaşamağa başlamışdır.

Naxçıvanın da ağır günləri davam edirdi, Naxçıvan tam blokadada idi. Naxçıvanın, ümumiyyətlə, gələcəkdə yaşaması ilə bağlı çox böyük təhlükələr var idi. Ermənilər necə ki, Qarabağı ələ keçirməyi planlaşdırırdılarsa, eləcə də Naxçıvanı da ələ keçirməyi planlaşdırırdılar. Naxçıvanı işğal etmək onların planlarının tərkib hissəsi idi. Heydər Əliyev Naxçıvanı qorudu, işğaldan qorudu. Erməni düşmənlər yerinə otuzduruldu və Naxçıvan çətin də olsa, blokada şəraitində də olsa yaşayırdı, əyilmədi, sınmadı, ayaqda qaldı.



Heydər Əliyevin gələcək fəaliyyəti üçün Naxçıvan dövrünün böyük əhəmiyyəti var. Xalq məhz onu özünə rəhbər seçdi, bu, demokratiyanın əsl təntənəsi idi. Azərbaycan hakimiyyəti - həm kommunist, həm dırnaqarası demokrat hakimiyyəti hər vəchlə çalışırdı ki, Heydər Əliyev Naxçıvandan uzaqlaşdırılsın. Naxçıvan demək olar ki, blokadada boğulurdu, onlar isə Naxçıvana qarşı təxribatlar törədirdilər, desant göndərirdilər, çevrilişə cəhd edirdilər. Sanki istəyirdilər ki, Naxçıvan da işğal altına düşsün. Ancaq xalq buna imkan vermədi, öz lideri ətrafında sıx birləşmişdir və bir daha demək istəyirəm, məhz Heydər Əliyevin qətiyyəti, fəaliyyəti nəticəsində Naxçıvan torpaqları erməni işğalına məruz qalmadı.

Müstəqilliyə gedən yol da məhz Naxçıvandan başlamışdır. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Bayrağı Naxçıvan Ali Məclisinin sessiyasında Dövlət Bayrağı kimi təsis edilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmışdır, Sovet İttifaqının və sonra artıq Rusiyanın hərbi birləşməsi olan motoatıcı diviziya Naxçıvandan çıxarılmışdır. Heydər Əliyev uzun illər ərzində xidmət etdiyi Sovet İttifaqı Kommunist Partiyasının sıralarından çıxmışdır və faktiki olaraq müstəqilliyə gedən yol Naxçıvandan başlamışdır.

Eyni zamanda, Azərbaycanın müasir siyasi sistemi də məhz Heydər Əliyevin adı ilə bağlıdır. 1992-ci ilin noyabrında Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması və Heydər Əliyevin partiyaya sədr seçilməsi faktiki olaraq Azərbaycanda müasir siyasi sistemin yaranmasına səbəb olmuşdur. Çünki Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaranmışdır, ovaxtkı antimilli iqtidara qarşı müxalifət kimi. Bu partiyanın – Yeni Azərbaycan Partiyasının yaranması bütövlükdə bütün Azərbaycanda böyük əks-səda vermişdir. Azərbaycanın müxtəlif bölgələrindən partiyaya üzv olmaq istəyənlərin axını müşahidə edilirdi və qısa müddət ərzində Yeni Azərbaycan Partiyası Azərbaycanın aparıcı siyasi qüvvəsinə çevrilmişdir və bu gün də bu, belədir.

... Məhz bu ağır dövrdə ovaxtkı hakimiyyət qardaş qanını axıtdı, vətəndaş müharibəsinə start verdi, təki hakimiyyətdə qalsın və öz talançılıq fəaliyyətini davam etdirsin. Xalq isə ayağa qalxdı, xalq Heydər Əliyevi tələb edirdi, ancaq Heydər Əliyevin simasında nicat yolu gördü. O ağır dövrdə xalqın tələbi ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev demək olar ki, gənc müstəqil Azərbaycan dövlətinin, sözün əsl mənasında, xilaskarına çevrilmişdi. Çünki müstəqilliyimiz əldən gedirdi, torpaqlar əldən gedirdi, ölkəmizin müxtəlif yerlərində separatçılıq baş qaldırıb gedirdi, ölkə parçalanma ərəfəsində idi, ölkədə bir çox silahlı birləşmələr faktiki olaraq müxtəlif istiqamətlərdə hakimiyyəti və ya hakimiyyət orqanlarını zəbt etmişdilər. Özbaşınalıq, quldurluq, xaos, anarxiya – 1993-cü ilin Azərbaycanı bax, budur. Yəqin ki, gənc nəsil indi bunu kitablardan öyrənə bilir. Amma biz - o dövrü yaşamış insanlar o günləri yaxşı xatırlayırıq və heç vaxt o günləri unutmamalıyıq.

Heydər Əliyevə göstərilən inam Azərbaycan xalqının müdrikliyini bir daha göstərdi. Heydər Əliyev 1993-cü ilin oktyabrında böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Dərhal ciddi islahatlara başlanıldı. Siyasi sahədə islahatlar aparıldı, bütün azadlıqlar təmin edildi. AXC-Müsavat cütlüyü tərəfindən tətbiq edilmiş antidemokratik senzura qaydaları ləğv edildi. Azərbaycan dünyaya açıldı, beynəlxalq təcridə son qoyuldu. Çünki bizim torpaqlarımız işğal altında idi, ancaq ovaxtkı hakimiyyətin yarıtmaz fəaliyyəti nəticəsində dünyada elə bir təsəvvür var idi ki, sanki Azərbaycan təcavüzkardır. Yeni, böyük diplomatik səylər göstərildi, Qarabağ həqiqətləri dünya ictimaiyyətinə çatdırıldı, beynəlxalq təşkilatlar işğalla bağlı ədalətli və bizim mövqeyimizi gücləndirən qərar və qətnamələr qəbul etmişlər.

Aydın idi ki, ölkənin gələcəyi yalnız xarici sərmayə hesabına mümkün ola bilər. Çünki xəzinə boş idi, inflyasiya min faizlərlə ölçülürdü, sənaye iflic vəziyyətdə idi, hətta neft-qaz sənayesi də faktiki olaraq iflic vəziyyətdə idi. Belə bir vəziyyətdə xarici investorları ölkəyə gətirmək, onları inandırmaq böyük siyasi məharət tələb edirdi. 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin kontraktı" növbəti bir dönüş nöqtəsi idi. İndi Azərbaycan dövlətinin payına düşən mənfəət neftinin 75 faizi bu gün bizim iqtisadiyyatımızı gücləndirir. Azərbaycan dövləti "Əsrin kontraktı"nın icrasına bir manat vəsait qoymayıb. Ancaq mənfəət neftinin 75 faizi Azərbaycana gəlir. Bu gün xarici şirkətlərlə aparılan neft-qaz əməliyyatları çərçivəsində minlərlə milli kadr yetişib. Bu gün "Əsrin kontraktı"nın icrasında işləyən insanların 90 faizi Azərbaycan vətəndaşlarıdır, bunu da biz kontrakt imzalayarkən şərt kimi qoymuşduq. Elə kadrlar yetişdi ki, bu gün istənilən sahədə işləyə bilərlər. Bu da bizə böyük əlavə üstünlük verir.

Əlbəttə ki, daxili və xarici düşmənlər - onlar da başa düşürdülər ki, Azərbaycan artıq inkişaf yoluna qədəm qoyub. Onlar öz çirkin əməllərindən əl çəkmək fikrində deyildilər. "Əsrin kontraktı" imzalanandan iki həftə sonra Azərbaycanda dövlət çevrilişinə cəhd edildi. Yenə də Heydər Əliyev amili, xalqın ona inamı bu cəhdin qarşısını aldı. Yüz mindən çox insan Azadlıq meydanına toplaşaraq öz Liderinə dəstəyini göstərmişdir və hərbi çevrilişdə əli olan ünsürlər pərən-pərən oldular. Vəziyyət təzə-təzə sabitləşirdi, 1995-ci ilin mart ayında ikinci dövlət çevrilişinə cəhd. Artıq digər qanaddan gələn zərbə yenə də gənc dövlətimizi sarsıtdı. Yenə də xalq Ulu Öndərin ətrafında birləşərək o cəhdə də imkan vermədi. 1996-cı ildə sabitliyi pozmaq üçün əlavə cəhdlər göstərildi, onların da heç bir nəticəsi olmadı və yalnız ondan sonra ölkəmizdə, sözün əsl mənasında, sabitlik yaranmışdır. O vaxtdan bu günə qədər biz sabitliyi qoruyuruq.

Sabitlik inkişaf üçün, təhlükəsizlik üçün əsas şərtdir. Bu gün dünyanın bir çox yerlərində sabitlik pozulub, müharibələr, münaqişələr, toqquşmalar baş verir, o, ölkələri geriyə atır. Ona görə hər kəs bunu Azərbaycanın timsalında əyani şəkildə gördü ki, sabitlik olan yerdə əmin-amanlıq da var, inkişaf da var. Sabitlik üçün isə güclü lider lazımdır. Azərbaycan xalqı Heydər Əliyevin simasında güclü Lideri seçərək, öz taleyini ona etibar etdi və yanılmadı. Azərbaycan xalqı müdrik xalqdır, dəfələrlə ən çətin anlarda, ən çətin dövrlərdə yeganə düzgün müdrik qərar qəbul etmişdir.

Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti kimi misilsiz xidmətləri vardır. Məhz onun qoyduğu yolla bu gün Azərbaycan uğurla gedir. Burada onun fəaliyyəti təkcə iqtisadi islahatlarla məhdudlaşmırdı. Milli-mənəvi dəyərlərin qorunmasında onun çox böyük rolu olmuşdur, gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində çox böyük rolu olmuşdur. Məhz onun təşəbbüsü ilə 1996-cı ildə Azərbaycanda birinci Gənclər Forumu keçirilmişdir. O vaxtdan bu günə qədər müntəzəm olaraq Gənclər Forumu keçirilir. Qarabağı, Zəngəzuru azad edən məhz gənclər olmuşdur, ovaxtkı gənclər və son 20 il ərzində yetişmiş gənclər.

Heydər Əliyev öz xalqına sıx bağlı olan bir adam idi. Məhz onun təşəbbüsü ilə Azərbaycan dilinin qorunmasına dair önəmli addımlar atılmışdır, müvafiq sərəncamlar imzalanmışdır. Azərbaycan dilinin qorunması milli kimliyimizin qorunması deməkdir. Azərbaycan dili çox zəngin dildir. Dünyada 50 milyondan çox insan üçün Azərbaycan dili Ana dilidir. Məhz Ulu Öndərin təşəbbüsü ilə Ana dilimizin qorunması istiqamətində atılan addımlar bu gün də davam etdirilir və bu, daim davam etdiriləlidir.

Heydər Əliyevin ordu quruculuğu sahəsində çox böyük xidmətləri olmuşdur. Məhz onun fəaliyyəti nəticəsində nizami ordu yaradılmışdır. Düzdür, o vaxt bizim maliyyə imkanlarımız məhdud idi, orduya lazımi qədər vəsaitin ayrılması mümkün deyildi. Çünki ölkə qarşısında duran problemlər çox ciddi idi və bir milyondan çox insan evsiz-eşiksiz qalmışdı, ağır vəziyyətdə yaşayırdı. Neft Fonduna yığılan birinci vəsait yenə də Heydər Əliyevin təşəbbüsü ilə məhz keçmiş məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına istiqamətləndirildi. Birinci qaçqın şəhərciyi məhz o vəsaitlə inşa edilmişdir. Vəsaitin qıtlığına baxmayaraq, ordu quruculuğu üçün çox ciddi addımlar atılmışdır.

Bu gün Azərbaycan Avrasiyada nəqliyyat mərkəzlərindən birinə çevrilib. Xatırlatmaq istəyirəm, məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Avropa-Qafqaz-Asiya Beynəlxalq Nəqliyyat Dəhlizinə dair çox böyük və mötəbər beynəlxalq konfrans keçirilmişdi. Məhz o illərdə bu gün "Orta Dəhliz" dediyimiz layihənin bünövrəsi qoyuldu – Avropa-Qafqaz-Asiya. Yəni, bu dəhlizin Azərbaycan ərazisindən keçməsi o illərdə şərtləndirildi. Halbuki bəziləri bunu istəmirdilər. Əfsuslar olsun, bu gün də elələri var ki, Azərbaycanı bu strateji layihədən kənarda qoymaq istəyirlər, amma onların arzuları gözlərində qalacaq.

*(Davamı səh.9-da)*

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti

*(Əvvəli səh.8-də)*

***(İxtisarla)*** Heydər Əliyev neft strategiyası bu gün imkan verir ki, biz inkişaf edək, imkan verir ki, biz Qarabağı, Zəngəzuru yenidən quraq. 1994-cü ildə "Əsrin kontraktı", 1996-cı ildə "Şahdəniz" qaz-kondensat yatağı üzrə imzalanmış kontrakt bizim bugünkü iqtisadi qüdrətimizi şərtləndirən əsas amildir. Bu gün Azərbaycan qazı nə qədər böyük önəm daşıyır, bunu hər kəs görür. Ölkəmizin geosiyasi önəmi böyük dərəcədə artıb. Bu gün Azərbaycan qazı 6 ölkəyə nəql edilir. Əgər hər şey plan üzrə gedərsə, bir il ərzində bu ölkələrin sayı 10-a çatacaq, ondan sonra daha da geniş coğrafiyanı əhatə edəcək. Bu, həm bizə gəlir gətirir, həm bizim siyasi çəkimizi, həm də təsir imkanlarımızı artırır. Bütün bu işlərin təməli o illərdə qoyulub. Mən bütün bu layihələrin iştirakçısı kimi bunu çox yaxşı bilirəm. O vaxt Azərbaycanın neft-qaz potensialı ilə bağlı bir çox uydurmalar, bir çox şayiələr gəzirdi, hələ bu gün də var. Amma həyat onu göstərir ki, biz nə demişiksə, hər bir sözümüz həyatda öz əksini tapıb.




Yəni, Ulu Öndərin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir və biz – onun davamçıları onun yolu ilə gedirik. 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam. 2003-cü ildən bu günə qədər 20 il keçib. Bu 20 il sürətli inkişaf və tərəqqi illəri olmuşdur. Uzun illər bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf edəcək. Bizim uzunmüddətli strategiyamız çox aydındır və daxili resurslara hesablanıb. Azərbaycan Ulu Öndərin yolu ilə gedərək öz dövlət müstəqilliyini daha da möhkəmləndirib. Bu gün, sözün əsl mənasında, müstəqil xarici və daxili siyasət apara bilən ölkələrin sayı dünyada çox məhduddur. Azərbaycan o ölkələrdəndir ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Çünki güclü iradəmiz var, güclü ordumuz var və eyni zamanda, güclü imkanlarımız var. Maliyyə resurslarımız, maddi vəziyyətimiz imkan verir ki, biz ancaq öz daxili resurslarımız hesabına yaşayaq və yaşayırıq, daxili resurslar hesabına Qarabağı yenidən qururuq, Zəngəzuru yenidən qururuq.

Müstəqillik ən böyük nemətdir, ən böyük sərvətdir. Bu gün biz bütün azərbaycanlılar qürur hissi ilə qeyd edirik ki, biz sözün əsl mənasında, müstəqil ölkə kimi yaşayırıq. Azərbaycanda təhlükəsizlik təmin edilir, Azərbaycanda əmin-amanlıq hökm sürür. İndi bir daha demək istəyirəm ki, dünyanın hər bir yerində müharibələr, toqquşmalar, qarşıdurmalar hökm sürür, hər gün biz bunu görürük. Azərbaycan sabitlik adasıdır, təhlükəsizlik adasıdır. Bu da böyük sərvətdir və Azərbaycan xalqı bunu yaxşı bilir. Çünki biz müstəqilliyimizin ilk illərində çətin günlər yaşamışdıq.

Azərbaycanda bütün azadlıqlar təmin edilir. Azərbaycan demokratik ölkədir. Azərbaycanda insanlar azad yaşayırlar. Azərbaycanda bütün xalqların, bütün konfessiyaların nümayəndələri bir ailə kimi yaşayırlar. Bu da dünyada bir nümunədir və bunu təkcə mən yox, bir çoxları, yəni, bu məsələ ilə yaxından məşğul olan ekspertlər, siyasətçilər, dövlət xadimləri, beynəlxalq təşkilatların rəhbərləri qeyd edirlər. Bu unikal ab-hava bu gün ölkəmizi gücləndirir. Bax, bu gün durduğum Şuşa şəhərinin mərkəzində bunu bir daha demək istəyirəm ki, Azərbaycanda yaşayan bütün xalqların qanı, canı bahasına biz bu gün burada dayanmışıq. Bu, böyük sərvətdir. Amma elə ölkələr var ki, orada milli, dini zəmində qarşıdurmalar baş verir, toqquşmalar baş verir. Elə ölkələr var ki, orada heç bir başqa xalqın nümayəndəsi yaşaya bilmir, elə Ermənistanı misal göstərək. Əhalisinin 99,9 faizi ermənilərdən ibarət Ermənistan bax, bu rəqəmlə faktiki olaraq öz faşist siyasətini göstərir. Ancaq vaxt var idi indiki Ermənistanın əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi, digər millətlərin nümayəndələri təşkil edirdi. İndi Avropanın bəzi ölkələrində, Ermənistana böyük rəğbətlə yanaşan ölkələrdə islamofobiya baş alıb gedir, qanunlar qəbul edilir, dinimizə qarşı çirkin əməllər törədilir, "Qurani-Kərim" yandırılır və buna da biganə yanaşırlar. Yəni, mən bu sözləri söyləməklə bir daha demək istəyirəm ki, bizdə mövcud olan ab-hava unikaldır. Bu, bizim həyat tərzimizdir və eyni zamanda, bu, bizim siyasətimizdir, bu, bizim gücümüzdür. Bu gün belədir, bundan sonra da belə olacaq. Ancaq belə olan halda, biz bundan sonra da rahat yaşaya bilərik, öz gələcəyimizi özümüz qura bilərik.

Ölkəmizin beynəlxalq nüfuzu, görün, nə qədər yüksəlib. Bu gün beynəlxalq təşkilatlarda Azərbaycanın hörməti artır. Qoşulmama Hərəkatı kimi dünyanın ikinci beynəlxalq təsisatına 4 ilə yaxın biz rəhbərlik edirik və ümumi rəyə görə, ləyaqətlə rəhbərlik edirik. Əgər belə olmasaydı, bizim sədrlik müddətimiz 120 ölkənin yekdil səsi ilə daha bir il uzadılmazdı. Bu gün Avropa üçün Azərbaycan çox önəmli ölkəyə çevrilib. Biz Avropa İttifaqına üzv ölkələrin üçdəbiri - doqquz ölkə ilə strateji tərəfdaşıq. Yəni, beynəlxalq mövqelərimiz kifayət qədər güclüdür. Biz beynəlxalq müstəvidə bizə lazım olan bütün sənədləri, qətnamələri qəbul etdirə bilmişik və bu, İkinci Qarabağ müharibəsinin uğurla aparılması üçün də öz rolunu oynamışdır. Çünki biz həqiqəti sübut etmişik. Biz yalnız həqiqəti sübut etməyə çalışırdıq və ona nail olduq ki, bu, bizim torpağımızdır. Bax, durduğum torpaq Azərbaycan torpağıdır. Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal işimizlə bu hüquqi və siyasi bazanı yarada bilmişik.

İqtisadi inkişafa gəldikdə, son 20 ildə dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur. İqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bizim valyuta ehtiyatlarımız 65 milyard dollara çatıb, xarici borcumuz 6 milyard dollardan bir qədər çoxdur. Yəni, bizim valyuta ehtiyatlarımız xarici borcu təxminən 10 dəfə üstələyir. Xarici borc isə ümumi daxili məhsulumuzun cəmi 9-10 faizini təşkil edir. Bizə bəzən dərs verməyə can atan bəzi ölkələrdə bu, 100 faizdir, bəlkə də çox. Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, biz heç kimdən asılı deyilik, biz heç kimin işinə qarışmırıq. Amma heç kimə imkan vermirik və verməyəcəyik ki, öz burnunu bizim işimizə soxsun, istər siyasi məsələlər olsun, istər Azərbaycan-Ermənistan məsələləri olsun, istər Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ olsun. Heç kimə imkan verməmişik və verməyəcəyik, bunu təmin etmək üçün iradəmiz də yerindədir, gücümüz də yerindədir.

Bununla paralel olaraq, son 20 il ərzində Ulu Öndərin yolu ilə gedərək sosial sahədə böyük irəliləyiş olub, maaşlar, pensiyalar müntəzəm olaraq qaldırılır, keçmiş məcburi köçkünlər üçün şəhərciklər salınıb, 300 mindən çox keçmiş məcburi köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. İndi isə onlar üçün biz, bax, Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda, Qubadlıda, Cəbrayılda, Kəlbəcərdə, Laçında, Xocavənddə, Hadrutda, Ağalıda, Talışda, Suqovuşanda evlər inşa edirik və inşa edəcəyik. Mən qeyd etdiyim kimi, son günləri Qarabağda və Zəngəzurda keçirmişəm, bizim siyasətimizin, qəbul edilmiş qərarların təzahürləri artıq hər yerdə görünür. Bu, böyük xoşbəxtlikdir. Müharibədən cəmi iki il yarım keçəndən sonra artıq biz keçmiş köçkünlərimizi iki kəndə qaytarmışıq. Qeyd etdiyim kimi, 10 kəndin bünövrəsi, bax, bu son günlərdə qoyulubdur. Bütün şəhərlərin Baş planları tərtib edilib və bütün şəhərlərdə indi genişmiqyaslı inşaat işləri aparılır.

Biz müasir texnologiyalara böyük önəm verərək, Azərbaycanda yüksək texnologiyaların inkişafına hesablanmış çox düzgün addımlar atmışıq. Burada həm kadr potensialı məsələləri, eyni zamanda, bizim investisiyalarımız, sərmayələrimiz - biz indi kosmik dövlətə çevrildik. Azərbaycanda kosmik sənayenin inkişafının çox böyük potensialı var və gələcək də məhz bu istiqamətdə inkişaf edəcək. Hər şeyi bundan sonra texnologiyalar həll edəcək. Biz həm texnologiyaları gətirib Azərbaycanda tətbiq etməliyik, həm də elə güclü kadr potensialı yaranmalıdır ki, biz özümüz bu texnologiyaların müəllifləri olaq.

Ulu Öndərin yolu ilə gedərək istənilən sahədə inkişafdan, uğurlardan bəhs etmək olar. Əlbəttə ki, bizim gördüyümüz bütün işlərin təməlində milli-mənəvi dəyərlərimizə bağlılıq dayanır. Bu gün dünyada, dünyanın müxtəlif yerlərində müxtəlif meyillər baş verir, müxtəlif tendensiyalar müşahidə olunur, dırnaqarası yeni dəyərlər meydana çıxır. Biz isə ənənəvi dəyərlərə sadiq qalaraq öz gələcəyimizi çox möhkəm milli-mənəvi təməl üzərində qururuq. Gənc nəsil belə yetişməlidir və biz gənc nəsli belə yetişdiririk. Gənc nəsil milli-mənəvi dəyərlərə bağlı olmalıdır, öz ədəbiyyatına, musiqisinə, incəsənətinə bağlı olmalıdır və biz bunu görürük, biz gəncləri belə yetişdiririk. Elə gənclər yetişdirmişik ki, bu gənclər dağı dağ üstə qoya bilər və əslində, bunu da etdilər. İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi. Biz elə bir gənc nəsil yetişdirdik ki, onlar həm yüksək mənəvi, həm də yüksək fiziki keyfiyyətlər göstərərək, uzun illər ərzində işğal altında olan torpaqları azad etdilər və Şuşa kimi alınmaz qalanı faktiki olaraq yüngül silahlarla, əliyalın azad etdilər. Nə idi bizi qabağa aparan? Ləyaqət və ruh!



Əlbəttə, biz ordu quruculuğu işində sistemli fəaliyyət göstərirdik və bu gün də göstəririk. İkinci Qarabağ müharibəsindən sonra biz dayanmadıq, əksinə, irəliyə gedirik. Bu ilin dövlət büdcəsinə əlavələr ediləcək, o əlavələrin böyük bir hissəsi yenə də hərbi məqsədlər üçün nəzərdə tutulur. Nə üçün? Çünki biz daim hazır olmalıyıq. Təhdidlər artır, təhlükələr artır və biz hər bir təhlükəni dəf etməyə qadir olmalıyıq. Bu gün də belədir. Azərbaycan Ordusu dünyanın ən güclü ordularının sırasındadır - həm təchizat, həm döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Bizim ordumuz döyüşüb, bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında göstərib. 44 gün ərzində bir nəfər də olsun geri addım atmayıb, bir nəfər də olsun fərari olmayıb. Bizim ordumuz budur. Bizim xalqımız budur. Çünki ordu xalqın bir hissəsidir. Orduda xidmət edən xalqın övladlarıdır, bizim yetişdirdiyimiz uşaqlardır. Biz belə gözəl uşaqlar yetişdirmişik ki, onlar düşməni burada, Şuşada əliyalın məğlub edib, düşməni torpaqlarımızdan çıxarıb, bizim qürur rəmzimiz olan bayrağımızı, bax, bu binaya və azad edilmiş bütün başqa torpaqlarda qaldırıb. Ordu quruculuğu bu gün lazımi səviyyədə təmin edilir və bundan sonra da təmin ediləcəkdir.

İkinci Qarabağ müharibəsindəki Qələbə isə bizim tarixi uğurumuzdur, tarixi Zəfərimizdir. Bu Zəfər Azərbaycan durduqca qalacaq, bizim qəlbimizdə, yaddaşımızda, kitablarda, əsərlərdə. Bu, qəhrəmanlıq dastanıdır. Bu, misli görünməmiş qəhrəmanlıqdır. Ermənistan 30 il ərzində öz himayədarlarının dəstəyi ilə bu torpaqları bizə verməmək üçün gecə-gündüz əlləşirdi. Həm coğrafi relyefə arxalanırdı, 5, 6, bəzən 7 xətt müdafiə istehkam qurğularına arxalanırdı və himayədarlarına arxalanırdı. Hesab edirdi ki, biz bu vəziyyətlə barışacağıq. Amma mən deyirdim ki, yox, barışmayacağıq. Deyirdim bunu, gərək məni eşidəydilər. Deyirdim ki, gec-tez gələcəyik, bir təpiklə düşməni qovacağıq, öz Bayrağımızı qaldıracağıq və öz doğma torpaqlarımızda yaşayacağıq. İkinci Qarabağ müharibəsi bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu göstərdi. Bizi qabağa aparan məhz bu idi.

Qeyd etdiyim kimi, Qarabağı azad görmək Heydər Əliyevin və bütün dünya azərbaycanlılarının əsas arzusu idi. Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, "Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!". Ondan sonra Şəhidlər xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı.

Bu gün Ulu Öndərin əziz xatirəsinə hörmət edərək biz, bax, bu Zəfərə, bu Qələbəyə hər zaman layiq olmalıyıq, hər birimiz, hər bir yerdə. Bu Zəfər, eyni zamanda, hər birimizin üzərinə əlavə məsuliyyət qoyur. Biz bu Zəfərə layiq olmalıyıq. Əminəm ki, belə də olacaq.

Bu gün Qarabağ dirçəlir, Zəngəzur dirçəlir, biz öz doğma torpaqlarımızda qururuq, yaradırıq. Qarabağın və Zəngəzurun bərpası missiyasını da uğurla icra edəcəyik. Necə ki, Ulu Öndərin vəsiyyətini yerinə yetirərək öz doğma torpaqlarımızı azad etdik, ərazi bütövlüyümüzü bərpa etdik, aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurduq, orada Azərbaycan Bayrağını qaldırdıq, ərazi bütövlüyümüzü tam bərpa etdik, eləcə də mülki missiyamızı - bu gözəl diyarın bərpası missiyasını da şərəflə yerinə yetirəcəyik.

Mən əminəm ki, bu gün atamın ruhu şaddır, bu gün bizim bütün əcdadlarımızın ruhu şaddır. Biz elə etməliyik ki, öz fəaliyyətimizlə daim onların ruhunu şad edək.

Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!



## "Ermənistanın Arazı çirkləndirməsi təsdiqini tapıb"

**İranın Enerji Nazirliyinin Su Sənayesi Təşkilatının sözçüsü Firuz Qasımzadə diqqət çəkən açıqlamalar verib.**

O, İLNA-ya müsahibəsində Araz çayının Ermənistanın sənaye tullantıları ilə çirklənməsi və bunun çaya yaxın əyalətlərə mənfi təsiri haqda danışıb: *"Bu problem uzun illərə dayanır və İran təxminən 10 il əvvəl Ermənistanla ciddi danışıqlar aparıb. İndi məsələ Ətraf Mühitin Mühafizəsi Təşkilatı tərəfindən araşdırılır".*

O, qeyd edib ki, aparılan araşdırmalara görə, çayı çirkləndirən bəzi mədənlər müəyyən edilərək İranın Energetika Nazirliyi tərəfindən onlara baxış keçirilməsi üçün müraciət olunub. Məsələyə artıq Ermənistan Prokurorluğu və Ekologiya Təşkilatı tərəfindən də baxılır.

*"İndi məsələ ciddi araşdırılır və Ətraf Mühitin Mühafizəsi Təşkilatı da problemin həlli üçün erməni tərəfi ilə danışıqlar aparır. Ermənistan hökuməti də əmin edib ki, buna mütləq nəzarət olunacaq və əgər hər hansı belə hallar varsa, müəyyən edilib qarşısı alınacaq",-* məmur deyib.

Xatırladaq ki, bir neçə gün öncə Ərdəbil Tibb Elmləri Universitetinin Səhiyyə məsələləri üzrə prorektoru, doktor Məhəmməd Cəfərzadə diqqət çəkən açıqlamalar vermişdi. O, müsahibəsində Ərdəbilin əyalətlər arasında mədə xərçənginə görə birinci yerdə olduğunu deyib. Amma Cəfərzadə bu əyalətdə mədə xərçənginin geniş yayılmasının səbəblərini qeyd etməyib. Bəzi İran saytları isə bunu İrəvanın ekoterroru ilə əlaqələndirmişdi. Ermənistandakı Metsamor Atom Elektrik Stansiyasının tullantı sularının Araz çayına axıdılması nəticədə çayın suyunun çirkləndiyini yazıb. Çirklənmiş sularla əkin sahələrinin suvarılması Araz çayının cənub sahillərindəki bölgələrdə xərçəng xəstəliyinin yayılmasına səbəb olur.

# Qarabağa qanunsuz pul köçürən banklara xəbərdarlıq olunub

**Bir müddət əvvəl bəzi məşhur bankların Qarabağdakı qanunsuz fəaliyyətlərin maliyyələşdirilməsində iştirakları haqqında məlumat yaymışdıq. Separatçı ideyalar ilə sadə vətəndaşları Azərbaycana qarşısı mübarizəyə səsləyən Ruben Vardanyan tərəfindən yaradılmış "Bizim dağlarımız" adlı qurum Qarabağda "hümantiar fəaliyyət" adı altında bir sıra layihələr icra edilir. Onlardan biri də "Davit bek gənclər Çempionatı" adı altında sistemli hərbi təlim və hazırlıq yarışıdır.**

Əslində gəncləri terrorçuluğa cəlb etmək məqsədi daşıyan bu yarış üçün 212 min ABŞ dolları məbləğində ianələrin yığılması əsasən erməni mənşəli "Ameriabank" vasitəsilə həyata keçirilir. Lakin "Citibank", "Raiffeisen Bank" kimi məşhur maliyyə qurumları da Qarabağa qanunsuz pul köçürülmələrində iştirak edirlər.

Azərbaycan Respublikasının Mərkəzi Bankı artıq bu qanunsuz fəaliyyətin qarşısını almaq istiqamətində işlərə başlayıb. Bankdan verilən açıqlamaya görə, sözügedən qanunsuz fəaliyyətin maliyyələşdirilməsində iştirak edən xarici maliyyə institutlarına rəsmi müraciətlərin ünvanlanması nəzərdə tutulur.

*"Eyni zamanda, işçi qaydada keçirilmiş görüşlər çərçivəsində bu fəaliyyətin terrorçuluğun maliyyələşdirilməsinə rəvac verməsi onların diqqətinə çatdırılıb, bunun qarşısının alınması üçün əməli tədbirlərin görülməsi tələb edilib",-* açıqlamada deyilir.




Mərkəzi Bank xatırladıb ki, torpaqlarımızın 30 ilə yaxın bir müddət ərzində Ermənistanın işğalı altında olduğu dövrdə həmin ərazilərdə qanunsuz bank-maliyyə fəaliyyətinin qarşısının alınması istiqamətində davamlı və adekvat tədbirlər həyata keçirib. Bu çərçivədə aparılmış davamlı monitorinqlər nəticəsində xarici maliyyə institutlarının, o cümlədən pulköçürmə xidmətləri göstərən təşkilatların işğal altında olmuş ərazilərimizdə fəaliyyəti aşkar olunduqda, həmin təsisatların və onların üzərində maliyyə nəzarəti funksiyalarını həyata keçirən orqanların rəhbərlərinə çoxsaylı məktublar ünvanlanıb. Bu fəaliyyətin qanunsuz olması, Azərbaycan Respublikası ərazisində bank xidmətlərinin göstərilməsi hüququnun yalnız Azərbaycan Mərkəzi Bankı tərəfindən verilmiş lisenziya əsasında həyata keçirilməsinin mümkünlüyü, BMT Təhlükəsizlik Şurasının məlum Qətnamələrinin tələblərinin pozulması, eləcə də cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə həmin qurumlar tərəfindən dəstək göstərilməsi barədə xəbərdarlıqlar edilib.

Mərkəzi Bank tərəfindən müvafiq məzmunda müraciətlər ABŞ, Avropa və Rusiya banklarına və digər maliyyə institutlarına da ünvanlanıb. Müraciətlərdə xarici maliyyə institutlarının işğal altında olmuş ərazilərdəki qanunsuz təşkilatlarla əməkdaşlığının dayandırılması tələb edilib və əksər hallarda buna nail olunub.

Açıqlamada bildirilir ki, Mərkəzi Bankın qanuni tələblərinə riayət etməyən xarici təşkilatlarla Azərbaycanın kommersiya banklarının əməkdaşlığı qadağan olunub: *"Məsələn, bir neçə pul köçürmə sistemləri işğal altında olmuş ərazilərdə qanunsuz olaraq ayrı-ayrı dövrlərdə fəaliyyət göstərib və bu faktlar aşkar olunduğu andan etibarən milli qanunvericiliyə və beynəlxalq prinsiplərə müvafiq olaraq Azərbaycan Respublikasının ərazisində onların fəaliyyətinin dayandırılması istiqamətində adekvat tədbirlər həyata keçirilib. Nəticədə, "MONEYGRAM", "Unistream", "MİGOM", "LEADER", "Bıstraya Poçta", "İnterexpress", "RİA Money Transfer", "İntelexpress", "Sigue Money Transfer" kimi pul köçürmə sistemlərinin ölkə ərazisində fəaliyyətlərinə qadağa qoyulub. Bundan əlavə, Mərkəzi Bank tərəfindən Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası kimi beynəlxalq təşkilatlara müraciət olunaraq, işğal altında olmuş ərazilərdə qanunsuz fəaliyyət göstərən maliyyə institutlarına birbaşa investisiyaların qoyulmasının məqsədəuyğun olmadığına dair məktublar ünvanlanıb".*

**Aytən Zəhra**

# ABŞ konqresmenləri İranın raket və PUA-larını hədəfə aldılar

**ABŞ Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin sədri Maykl Makkol, habelə Komitənin bir neçə respublikaçı və demokrat konqresmeni İranın raket və pilotsuz uçuş aparatlarının fəaliyyətinə sanksiya tətbiq olunması planını təqdim ediblər.**

ABŞ konqresmenlərinin təşəbbüsü hələ İranın raket proqramına qarşı BMT-nin 2231 saylı qətnaməsi çərçivəsində tətbiq edilən məhdudiyyətlər başa çatmamış irəli sürülüb. Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin sədri Mayk Makkolla yanaşı bu planı hazırlayıb təqdim edənlər sırasında habelə sözügedən komitənin yüksək vəzifəli üzvü, demokrat Qreqori Miks, onun partiya üzrə həmkarı Din Fillips, habelə respublikaçı, Yaxın Şərq, Şimali Afrika və Mərkəzi Asiya alt komitəsinin sədri Co Vilson yer alıblar.

ABŞ konqresmenləri öz təşəbbüslərini Rusiya-Ukrayna müharibəsində İranın hərbi-texniki təchizat baxımından Moskvaya dəstək verməsinin qlobal miqyasda böyük bəlalara yol aça bilməsi təhlükəsi prizmasından əsaslandırıblar.



*"BMT-nin məhdudiyyətləri olsa belə, İran raketləri və pilotsuz təyyarələri Yaxın Şərqdəki qoşunlarımızı, müttəfiqlərimizi və tərəfdaşlarımızı hədəfə alaraq Vladimir Putinin Ukraynaya qarşı qeyri-qanuni və aqressiv müharibəsini getdikcə daha da gücləndirir. Təcili tədbirlər görülməsə, İranın raketləri və pilotsuz təyyarələri oktyabr ayında bütün dünyada daha böyük fəlakətlərə səbəb ola bilər"* – konqresmenlərin verdiyi bəyanatda deyilir.

# PUTİNDƏN KÖMƏK İSTƏDİ, TƏCİLİ ÖLKƏSİNƏ QAYITDI...

## Lukaşenkoya nə olub?

**Məlum olduğu kimi, ötən gün Moskvadakı "Qırmızı Meydan"da faşizm üzərində**





**qələbənin 78-ci ildönümünə həsr olunan tədbir keçirilib.**

Mərasimdə iştirak edən 7 xarici ölkə liderindən biri olan Belarus Prezidenti Aleksandr Lukaşenkonun ötən günkü davranışları böyük maraqla qarşılanıb.

Lukaşenkonun mərasimdən tez ayrılması, əlindəki sarğı beynəlxalq mətbuatda da geniş müzakirələrə səbəb olub.

Belə ki, paylaşılan görüntülərdə Belarus liderinin mərasim zamanı yerimədə çətinlik çəkdiyi, çələng qoyma mərasimi zamanı ayaqlarını sürüyərək hərəkət etdiyi, əlində isə sarğı olduğu görünüb.

İddialara görə, həmin vaxt Belarus lideri Putindən ona kömək etməsini xahiş edib. Bunun üzərinə Putin müavinlərinə Lukaşenko üçün xüsusi avtomobil hazırlamağı tapşırıb. Daha sonra Lukaşenko onun üçün ayrılmış nəqliyyat vasitəsi ilə hava limanına yollanıb və oradan da ölkəsinə qayıdıb.

Belaruslu politoloq Dmitri Bolkunets "Telegram"da verdiyi açıqlamada Lukaşenkonun səhhətindəki problemlərə görə liderlərlə nahara qatıla bilmədiyini və ölkəsinə qayıtdığını bildirib.

Qeyd edək ki, Lukaşenkonun səhhətində problem olmasıyla bağlı məlumatlar yeni deyil. Bir sıra iddialara görə, Lukaşenko Qərbin sanksiyaları səbəbindən əməliyyat oluna bilmədiyi üçün, insult keçirmə riski ilə yaşayır.

Prezidentə yaxın mənbələr Lukaşenkonun ağrıkəsicilərlə yaşamasına səbəb olan onurğa probleminin olduğunu ehtimal edirlər.

Belaruslu siyasətçi Pavel Latuşko da bu iddialarin doğru olduğuna inanır: ***"Onun nə öz ölkəsində, nə də Rusiyada ehtiyac duyduğu cərrahiyyə əməliyyatını etdirməsi qeyri-mümkündür. Çox güman ki, bunu Qərbdə etmək lazımdır. Ancaq sanksiyalar səbəbindən bunu etmək mümkün deyil. O, qismən iflic vəziyyətinə düşə bilər".***

# Rusiya "ehtiyac yoxdur" demişdi

## Qorxu reallığa çevrilir

**İkinci Dünya Müharibəsindən sonra iki blok formalaşmışdı, Qərb ölkələri və Türkiyə NATO-da toplandılar, SSRİ və onun təsiri altındakı Şərqi Avropa dövlətləri Varşava Müqaviləsi Təşkilatını yaratdılar. SSRİ-nin dağılmasıyla Varşava Müqaviləsi Təşkilatı da dağıldı və bu qurumun keçmiş üzvlərinin əksəriyyəti NATO-ya üzv qəbul edildi.**



Bu barədə "Atlas" Araşdırmalar Mərkəzinin təhlilində deyilir.

Təhlildə vurğulanır ki, Rusiya rəsmiləri 1991-2000-ci illərdə NATO-ya ehtiyac olmadığını səsləndirirdilər: ***"Kremlin məntiqi sadə idi: SSRİ yoxdursa və "soyuq müharibə" bitibsə, NATO-ya da ehtiyac olmamalıdır. NATO ölkələri fərqli düşünürdülər. Rusiyanın 2008-ci ildə Gürcüstana, 2014-2022-ci illərdə Ukraynaya hərbi müdaxilələri NATO-nun davamlılığının vacibliyini bir daha təsdiqlədi. Uzun onilliklər neytral siyasətə üstünlük verən Finlandiya və İsveç belə alyansa üzvlüyə qərar verdi.***

***Beləliklə, NATO bütün Avropanın tamamında möhkəmlənir, növbəti hədəf Ukraynanın təşkilata üzvlüyünü təmin etməkdir. Bu, çətin olacaq, çünki Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəsi davam edir. Müharibə bitməyənə qədər Ukraynanın Şimali Atlantika Blokuna üzvlüyü problematikdir. Ancaq müharibə bitdikdən sonra bu aktuallaşacaq və məsələ müsbət həllini tapacaq.***

***NATO-nun təhlükəsizlik maraqları Avropanın hüdudlarını aşıb. Suriya və Liviyadakı müharibələr göstərdi ki, NATO ölkələri Avrasiya bölgəsində təhlükəsizlik məsələlərinə də diqqət ayırmaq məcburiyyətindədir. NATO Əfqanıstandakı əməliyyatlara da qatılmışdı".***

Mərkəzin ekspertləri deyirlər ki, NATO-nun fəaliyyət dairəsini genişləndirməsi Rusiya və Çini narahat edir: ***"NATO uzaq Yaponiyada ofis açmaq qərarı verib. Çin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mao Nin açıqlama verərək, NATO-nun Yaponiyada ofis açmaq niyyətinin və Şərqə doğru irəliləməsinin regionda sabitliyi pozacağını deyib. Onun sözlərinə görə, Asiya geosiyasi döyüşlərə səhnə olmamalıdır.***

***NATO Cənubi Koreya, Avstraliya və Yeni Zelandiya kimi təhlükəsizlik tərəfdaşları ilə danışıqları asanlaşdırmaq üçün Yaponiyada ilk əlaqə ofisini açmağı planlaşdırıb. Yaponiyada NATO ofisinin açılması Çin və Rusiyanın bölgədə artan hərbi gücüylə əlaqəlidir. Rusiya və Çin həm quruda, həm də okean və dənizlərdə birgə hərbi təlimlərin sayını artırıb. NATO bu fəallığa seyirçi qalmaq istəmir".***

*Mənsur Rəğbətoğlu*



# "QRANOVİT PALATASI"NDA "ÇAR ZİYAFƏTİ"...

## Putin parada qatılan liderlərə verdiyi ziyafətdə nələrə eyham vurub?

SSRİ və onun parçalanmasından sonrakı Rusiya tarixində ən sönük və ən çox tənqid olunan 9 may paradı başa çatsa da, onunla bağlı müzakirələr davam edir. Bu müzakirələrdə çoxdan Putinin əmr quluna çevrilən Ermənistan və Belarus başçıları ilə yanaşı gözlənilmədən bütün 5 Orta Asiya respublikaları rəhbərlərinin iştirakından tutmuş paradda olduqca az sayda hərbi texnika və canlı qüvvə nümayişinə, onun çox qısa müddətdə başa çatmasına, Vladimir Putinin öz qısa nitqində yeni heç nə deyə bilməməsinə və Kremldə qonaqlara verilən ziyafətə qədər bir çox məsələlərə toxunulur.

Rusiya mətbuatında və sosial şəbəkələrdə Vladimir Putinin qonaq ölkə liderlərinə verdiyi ziyafətin bəzi detalları yer alıb.

Putinin Moskvaya "yarıkönüllü" təşrif buyuran qonaqlarına verdiyi ziyafətdə təqdim olunan yeməklər barədə deyilir ki, liderlərə pomidorlu və hisə verilmiş ördək salatı, çiyələk şərbəti, levrek filesi, bibər sousu ilə mal əti steyki, püstəli rulet və s. verilib.

Ancaq ən maraqlısı rəsmi ziyafətin Kremlin məşhur tikililərindən olan "Qranovit palatası"nda keçirilməsidir. Putun tərəfindən məhz bu zalın seçilməsi təsadüfi sayılmır. Sözügedən iqamətgah hələ 1487-1491-ci illərdə Çar III İvanın sifarişi ilə italyan arxitektorlar tərəfindən tikilib. Çoxsaylı divar rəsmlərilə bəzədilmiş bu böyük Çar palatası Rusiya imperiyası tarixi boyu imperatorların taclandırılması mərasimi, bununla bağlı ziyafətlər və digər əlamətdar hadisələrlə bağlı təmtəraqlı məclislər üçün istifadə edilib. İqamətgahın divarlarındakı çoxsaylı rəsmlərdə çarların öz əyanlarını, xarici qonaqlarını qəbulu səhnələrindən tutmuş, taclandırma mərasimlərinə, ziyafətlərə qədər bir çox epizodlar əks olunub.

Rus çarlarının dövründə sonuncu dəfə bu palatada 1896-cı il mayın 14-də Çar II Nikolayın taclandırılması mərasimi və bununla bağlı ziyafət keçirilib. Yeri gəlmişkən, Ukraynadakı işğalçılıq müharibəsi başlayandan və onun Rusiya üçün uğursuzluqla başa çatacağı qənaəti yaranandan bəri bir çoxları Putini məhz inqilab nəticəsində devrilən və daha sonra qətlə yetirilən II Nikolayla müqayisə etməyə başlayıblar. Onu da qeyd edək ki, məhz Kremlin "Qranovit palatası"nda 1653-cü ildə Ukraynanın o vaxtkı Moskva dövlətinin tərkibinə qatılması mərasimi keçirilib və qeyd edilib. Görünür, liderləri məhz bu zala dəvət edən Putin bu cür tarixi hadisələrə və Rusiyanın imperiyaçılıq tarixinə işarə vurub. Ancaq dünənki mərasim Ukraynanın yenidən Rusiyaya birləşdirilməsi yox, ondan daha da uzaqlaşması, orada davam edən və Rusiya üçün heç də yaxşı bitməyəcəyi aşkar görünən qanlı müharibə fonunda baş tuturdu...

Bütün bunlar Vladimir Putinin hələ də "tarixi turbulentlik" vəziyyətindən çıxa bilməməsinin, imperiyaçılıq sevdası ilə yaşamasının, yenə də hansısa əlamətlər, jestlər və s. dili ilə danışmasının göstəricisidir. Bu isə təkcə Rusiya başçısının hələ də "keçmişdə qaldığı" yox, həm də onun hansı psixoloji durumda olduğu barədə təsəvvür yaradır. Ancaq müasir dünyada real iqtisadi, siyasi, hərbi, texnoloji, elmi, mədəni və digər uğurlar, yeniliklər həlledici rol oynayır, nəinki kiflənmiş və çoxdan mənasını itirmiş "tarixi" jestlər və eyhamlar...

*Cəlal Məmmədov*

# BƏQƏRƏ SURƏSİNİN MESAJLARI

XXXIX YAZI

*(əvvəli ötən sayımızda)*

### OTUZ ALTINCI AYƏNİN ANLAMI

*“Ancaq Şeytan onları çaşdırdı / aldatdı, nəticədə, sahib olduqları müstəsna məqamdan uzaqlaşdırdı. Biz dedik: “Bir-birinizə düşmən olaraq çıxıb gedin / enin. Yer üzündə keçici bir həyat və dadımlıq bir həzz sizi gözləyir”* (2/36)

**1) “Ancaq Şeytan onları çaşdırdı / aldatdı, nəticədə, sahib olduqları müstəsna məqamdan uzaqlaşdırdı...”**

Qurani-Kərimdə həm “Şeytan”, həm də “İblis” sözləri var. Bu sözlərin mənaları Bəqərə surəsinin otuz dördüncü ayəsinin mənası açıqlanarkən verilmişdir (Bəqərə surəsinin mesajları (21-34-cü ayələr), Bakı, 2019).

Biz burada diqqəti beş məsələyə yönəltmək istəyirik. Birincisi, ayə deyir ki, insan iradəli varlıqdır, o, xeyri də, şəri də seçə bilər. İnsan Şeytan qarşısında aciz deyil: *“Bu, bir gerçəkdir ki, xas qullarım üzərində sənin (şeytanın) heç bir inandırıcı gücün olmayacaq...”* (Hicr, 15/42). Allah xas qulların özəlliklərini də sıralamışdır:

*- söz verdikləri xeyri yerinə yetirirlər; (İnsan, 76/7)*

*- axirət qayğısı daşıyırlar; (İnsan, 76/7)*

*- öz istək və arzularına baxmayaraq, möhtaclara, yetimlərə, əsirlərə yedirirlər; (İnsan, 76/8)*

*- deyirlər ki, biz sizi sadəcə Allah rizası üçün yediririk, sizdən nə bir qarşılıq, nə də təşəkkür gözləyirik; (İnsan, 76/9)*

*- hesab günü Rəbbimizin rizasını itirməkdən qorxuruq; (İnsan, 76/10)*

*- ona görə də Allah onları (xas qulları) bu günün dəhşətindən qoruyacaq, onların (üzlərinə) nur, (ürəklərinə) sürur (fərəh) qoyacaq; (İnsan, 76/11)*

*- səbirləri qarşılığında onlara cənnət bağçaları və tərifi imkansız olan özgür bir (həyat) bəxş edəcək; (İnsan, 76/12)*

Qurani-Kərim şeytanın kimləri yoldan çıxara biləcəyini də açıqlamışdır:

*- batil (anlamsız, məna və məqsəddən uzaq) inanc sahiblərini; (Hicr, 15/42)*

*- cahilləri (həddini bilməyənləri, həqiqəti tanımayanları, ağıl, iradə və vicdanını şeytana təslim edənləri); (Hicr, 15/42)*

*- şüursuzları (düşünməyənləri; ağlından istifadə etməyənləri); (Hicr, 15/42)*

*- şeytanı bələdçi seçənləri; (Nəhl, 16/100)*

*- şeytanı ilah yerinə qoyanları; (Nəhl, 16/100)*

İkincisi, Adəm və Havva (Qurani-Kərimdə Havva adı yoxdur) günahsız deyillər. Onlar Allahın xəbərdarlığını unutdular, şeytanın vədlərinə aldandılar, günaha batdılar. Allah kimsəni azdırmaz, azmasını istəməz, ancaq azmaq (yoldan çıxmaq) istəyənin azmasına izin verər: *“... Nə zaman yoldan çıxdılarsa, Allah da onların qəlblərinin azmasına izin verdi”* (Saf, 61/5).

*Üçüncüsü, Qurani-Kərim şeytanın Adəm və xanımını necə aldatdığını bir-bir saymışdır*:

*- bu yasaq ağacın meyvəsindən yesəniz, mükəmməl (iki mələk kimi) olacaqsınız; (Əraf, 7/20)*

*- əbədi (ölümsüz) olacaqsınız; (Əraf, 7/20)*

*- şeytan and içdi, dedi ki, mən ikinizin də yaxşılığını istəyirəm. (Əraf, 7/21)*

Allahın bu qissə üzərindən verdiyi mesajlar var: insan qüsurlu varlıqdır, ehtiyaclıdır, o, mükəmməl ola bilməz, mükəmməllik ancaq Allaha aiddir. İnsan əbədi (ölümsüz) varlıq deyil, fanidir, mütləq ölüm acısını dadacaq, əbədi həyat axirətdədir. Şeytan insanın açıq düşmənidir, o, insanı doğru yoldan çıxarmaq üçün çalışır, insan onu tanımalı, heç bir halda ona inanmamalı, qorunmaq üçün Rəhman və Rəhim olan Allaha sığınmalı, yəni Onun buyurduğu kimi yaşamalıdır.

Dördüncüsü, bir sıra kitablarda yazılır ki, Adəmin şeytana aldanmasına, Onun cənnətdən çıxarılmasına səbəb olan Havvadır. Bu, Allaha və Havvaya iftiradır. Öncə onu deyək ki, qadın haqqında mənfi fikir, qadının şeytanlığı, fitnəkarlığı, Adəmin Şeytana aldanmasına, cənnətdən çıxarılmasına səbəb olması, qadının kişinin qabırğasından yaradılması kimi əsassız fikirlər xristian və yəhudi qaynaqlarından İslama daxil olmuş xurafələrdir. Qurani-Kərim bu xurafələri rədd edir. Buyurur ki, o ikisinə birdən - eyni anda vəsvəsə verən varlıq Şeytandır (Əraf, 7/20; Bəqərə, 2/36), hətta Taha surəsinin yüz iyirminci ayəsində özəlliklə vurğulayır ki, Şeytan ona (Adəmə) vəsvəsə verdi: Qurani-Kərimdə Havvanın Adəmi yanlış yola sövq etdiyi ilə bağlı heç bir işarə yoxdur. Qurani-Kərimin qadına baxışını ən ümumi şəkildə belə sıralamaq olar:

*- hz.Adəm nədən yaradıldı isə, Havva da ondan yaradıldı;*

*- kişi, ya da qadın olmaq üstünlük ölçüsü deyil, üstünlük ölçüsü təqvadır;*

*- qadın da, kişi də məsuliyyətli varlıqdır;*

*- qadın ailənin iki dirəyindən biridir;*

*- evlənmək Allahın qanunudur;*

*- qadının həyat yoldaşı seçmək haqqı var;*

*- qadının boşanma haqqı var;*

*- qadın miras haqqına sahibdir;*

*- qadının oxumaq, işləmək, mal, mülk sahibi olmaq haqqı var;*

*- Allah qadına cinsiyyət üzərindən deyil, insanlıq üzərindən dəyər verir;*

*- qadın və kişi bir-birini əvəz edə bilməz, onlar fərqli varlıqlardır;*

*- hz.Adəmi hz.Havva yoldan çıxarmamışdır, ikisini də Şeytan aldatmışdır;*

*- elm öyrənmək qadına da, kişiyə də fərzdir;*

*- Allah qadın və kişiyə eyni dərəcədə dəyər verir, məsuliyyət yükləyir, belə buyurur: “Şübhəsiz, Allaha tam təslim olmuş bütün kişilər və qadınlar, Ona güvənib inanmış bütün kişilər və qadınlar, varlığını Ona həsr etmiş (adamış) bütün kişilər və qadınlar, əhdinə sadiq bütün kişilər və qadınlar, sıxıntılara qarşı dirənən bütün kişilər və qadınlar, (Allaha qarşı) dərin saygı ilə titrəyən bütün kişilər və qadınlar, (Allaha) sədaqətlərini sərvətlərini yoxsullara paylaşaraq isbat edən bütün kişilər və qadınlar, nəfslərini nəzarət edib tutub oruc tutan bütün kişilər və qadınlar, iffətlərini (namuslarını) qoruyan bütün kişilər və qadınlar, Allahı davamlı xatırlayan bütün kişilər və qadınlar... (Məhz) onlara Allah sınırsız bir bağışlama və möhtəşəm bir mükafat hazırlamışdır” (Əhzab, 33/35).*



Beşincisi, İslamda *“əsli/ilk günah”* anlayışı yoxdur. Bu uydurma anlayış xristianlığa aiddir. Onlara görə hz.Adəm günah etmiş, Onun günahı bağışlanmamış, nəslinə miras qalmış, hz.İsanın qurban edilməsinə səbəb olmuşdur, dolayısı ilə, bütün insanlar günahkar doğulurlar. Qurani-Kərim *“əsli günah”* anlayışını bu yollarla rədd edir:

*- hz.Adəmin günah etdiyi doğrudur, ancaq O, tövbə etmiş, Allah da Onu bağışlamışdır; (Bəqərə, 2/37)*

*- hz.Adəm cənnətdən qovulmamışdır, O, tövbə etdikdən sonra yer üzünə xəlifə təyin edilmişdir. Xəlifəlik yer üzünü Allahın ölçüləri ilə idarə etmək vəzifəsidir. Qovulana xəlifəlik verilməz;*

*- Qurani-Kərim açıqca buyurur ki, kimsə kimsənin günahını (məsuliyyətini) yüklənməz; (Fatır, 35/18)*

**2) “... Bir-birinizə düşmən olaraq enin...”**

Bu ayədən anlayırıq ki, Şeytan insanın açıq düşmənidir. İnsanla Şeytan arasında son saatadək davam edəcək bir savaş var. Allah insana Şeytana qalib gəlmək imkanı vermiş, onu məğlub etməyin yollarını göstərmiş, buyurmuşdur ki, Allaha təslim ol ki, zəfər sənin olsun.

Bir-birinə düşmən olanlar iki qrupdur: insan və Şeytandır, Allahın yolu ilə gedənlərlə Şeytanın yolu ilə gedənlərdir. Allah Şeytanın yolu ilə getməyən, ancaq ona aldananlara da çıxış yolu göstərib: hz.Adəmi örnək verib, tövbə et, təmizlən, doğru yola gir...

**3) “... Yer üzündə keçici bir həyat və dadımlıq bir həzz sizi gözləyir”**

Yəni yer üzündə yaşayacaqsınız, yer üzünü sizin üçün yaşayış məskəni seçən/edən Allahdır (Mömin, 40/64). Əcəliniz gələnədək (fani-ölümlüsünüz) yer üzündə qalacaqsınız. Orada sizin üçün ruzilər var. Onlardan faydalanmaq da haqqınızdır. Unutmayın ki, dünya və nemətləri əbədi deyil, bu dünya imtahan yeridir, axirətin tarlasıdır, əbədi həyat və nemətlər axirətdədir.

### OTUZ YEDDİNCİ AYƏNİN ANLAMI

*“Ancaq Adəm Rəbbindən aldığı bir sıra kəlmələrə sarıldı. (Allah) da onun tövbəsini qəbul etdi. Çünki O, bəli, O idi tövbələri qəbul etmə məqamında olan, hər işində mərhəmət sahibi olan”* (2/37)

**1) “Ancaq Adəm Rəbbindən aldığı bir sıra kəlmələrə sarıldı...”**

Uca Allah Adəm - Şeytan qissəsində iki davranış biçimi ortaya qoyur. Bəllidir ki, Şeytan da üsyan etdi, hz.Adəm də, ikisi də cənnətdən (gözəl bağçadan) çıxarıldı. Ancaq Şeytan xətasında israr etdi, saxta qədər anlayışına sığındı, iftira atdı, dedi ki, məni bu hala salan Allahdır, O istəməsə idi, mən günah (üsyan) etməzdim: “(İblis) dedi: “Rəbbim, məni (Sən) yoldan çıxardığın üçün mən də yer üzündə onlara (insanlara) günahları bər-bəzəkli göstərəcəyəm və mütləq onların hamısını yoldan çıxaracağam” (Hicr, 15/39).

Allahın Şeytanın bu davranışı ilə verdiyi mesajlar var: Şeytan öncədən Şeytan deyildi (o, cinlərdən idi), onu xətasında israrı, saxta qədər anlayışı, iftirası, tövbə etməməsi, yanlış seçimi (Şeytan iradəli varlıqdır, o, məsuliyyət daşıyır, seçim imkanı var) şeytanlaşdırdı, seçimi qədəri oldu, nəticədə, lənətləndi, yəni Allahın rəhmətindən uzaqlaşdırıldı. Bu, bir ibrətdir: ey insan, Şeytanın etdiyini etmə, yoxsa aqibətin Şeytan kimi olacaq.

Hz.Adəm fərqli davranış biçimi seçdi. O, xətasını anladı, günahını müdafiə etmədi, seçiminin (insan iradəli varlıqdır, seçim imkanı var, seçdiyinə görə məsuliyyət daşıyır) məsuliyyətini öz üzərinə götürdü, Allahı suçlamadı, üsyanını saxta qədər anlayışına bağlamadı, əksinə, Allaha yönəldi, tövbə etdi (eyni işi Havva da etmişdir). Nəticədə, Allah onu bağışladı, təmizlədi, mükafatlandırdı, yer üzünə xəlifə təyin etdi.

Hz.Adəmin və xanımının davranışı bir örnəkdir (pis işdə ibrət, yaxşı işdə örnək var), belə ki Allah bu örnəklə insana mesajlar verir: ey insan, sən ağıllı, iradəli, vicdanlı varlıqsan, seçim imkanın var, seçiminin məsuliyyəti sənə aiddir, seçimin qədərin olacaq. Sən həm savab, həm də günah işləmək imkanı ilə yaradılmısan (iradəli olmaq bu imkanların var deməkdir), ehtiyaclı, aciz varlıqsan, bəzən seçimin yanlış ola bilər, günaha batarsan (insan mükəmməl deyil, mükəmməlliyə can atmamalıdır, mükəmməllik ancaq və ancaq Allaha aiddir), o zaman yasa batma, ümidsiz olma (hz.Adəm qissəsi həm də ümid qissəsidir), hz.Adəmi örnək al, xətanda israr etmə (xətada israr insanı şeytanlaşdırar), tövbə et, bil, əmin ol ki, hər tövbənin sonunda bir ilahi mükafat var. Bu mükafat təmizlənmə, bağışlanmadır. Tövbə etmək ümid etməkdir (ümidi olmayan tövbəyə yönəlməz), Allah əsla və əsla insanın bu ümidini boşa çıxarmaz. Xəta (günah) deyil, xətada israr şeytanlaşma, lənətlənmə səbəbidir. Allah hz.Adəm və Havva örnəyi ilə insana günahlarından qurtulma yolunu göstərmiş, ona ümid vermişdir. Ümid insanı şeytandan və şeytanlaşmaqdan qoruyan ən önəmli dəyərlərdən biridir (Şeytanın tələsinə düşənlər ümidsizlərdir). Günah insanın Allahla sağlam münasibətlərini pozur, tövbə isə bu münasibətləri bərpa edir...

Allah ayədə buyurur ki, Adəm Rəbbindən aldığı kəlmələrə sarıldı. Ayədəki “kəlmə” sözü fərqli anlamların ortaya çıxmasına yol açmışdır. Biz öncə “kəlmə” sözünün mənasını izah edək.

*“Kəlmə”* sözü ərəbcədir, *“k-l-m”* kökündəndir. Qurani-Kərimdə eyni kökdən olan sözlərin sayı yetmiş beşdir, bu anlamları var:

*- “danışmaq”: “O elçilərin bir qismini o birilərindən fərqli qıldıq. Allah onlardan bir qismi ilə danışmış, bəzilərini də dərəcə-dərəcə yüksəltmişdi” (Bəqərə, 2/253).*

*- “Allahın vəhyi”: “Halbuki bunlardan bir qrupu vardı ki, Allahın sözünü eşidirdilər, düşündükdən (qavradıqdan) sonra isə bilə-bilə onu dəyişdirirdilər” (Bəqərə, 2/75).*

*- “söz”: “Rəbbinin sözü həm doğruluq, həm də ədalət baxımından tamamlanmışdır” (Ənam, 6/115).*

*- hz.İsa: “Məryəm oğlu İsa Məsih Allahın elçisi və kəlməsidir” (Nisa, 4/171).*

*- “Allahın elmi”: “Yer üzündə ağaclar qələm olsa, dəniz(lər) də (mürəkkəb), arxasından yeddi dəniz ona yardım etsə (Allahın kəlmələri yazılsa), yenə (bunlar tükənər), Allahın kəlmələri tükənməz” (Loğman, 31/27).*

*- “Allahın əmrləri”: “Bir zamanlar Rəbbi İbrahimi bir sıra kəlmələrlə sınamışdı” (Bəqərə, 2/124).*

*Ardı var...*

*Sıracəddin Hacı*

# Nizami Cavanşir oğlu Abdullayev - 73

**Abdullayev Nizami Cavanşir oğlu 10 may 1950-ci ildə Qəbələ rayonunun Tikanlı kəndində dünyaya göz açmışdır.**

1967-ci ildə Bum kənd orta məktəbini əla qiymətlərlə başa vurduqdan sonra həmin il Ç.İldırım adına Politexnik İnstitutunun Mexanika fakültəsinin yeyinti sənayesi maşın və aparatları ixtisası üzrə 1972-ci ildə müvəffəqiyyətlə başa vurmuşdur.

İlk işini Bakı Bulka-Maya Kombinatında çilingər kimi işə başlayır. 1978-ci ildə artıq baş mühəndis vəzifəsində fəaliyyət göstərən Nizami Sumqayıt şəhər Çörək-Qənnadı Kombinatına baş mühəndis vəzifəsinə göndərilir. 1980-ci ildə Nizami Abdullayevin yüksək bacarıq və qabiliyyətli olduğunu rəhbərlik nəzərə alıb, onu Göyçay şəhərində tikintisi başa çatmamış 17 saylı çörək zavoduna direktor təyin edirlər. Göyçay camaatının yaxşı yadındadır, Nizami ilk toplantıda o qəti sözünü deyir: «Çörək zavodu yaxın aylara təhvil verilməlidir, başqa yol yoxdur.»



Qısa vaxtda gənc direktor işi yüksək səviyyədə təşkil etdi. Hər kəs tutduğu işin sürətlə yerinə yetirilməsinə var gücü ilə çalışdı. Elə həmin 1980-ci ildə çörək zavodu təhvil verildi. 1981-ci ildə Bakı Qənnadı fabrikinə baş mühəndis göndərilən N.Abdullayev 1983-cü ildə artıq həmin fabrikin direktoru təyin olunur. İşlədiyi müddət ərzində əvvəlki işlərdə olduğu kimi burada da çalışqanlığı diqqəti cəlb edir. Hər ay bütün iqtisadi planlar artıqlaması ilə yerinə yetirilir. Göstəricilərə görə fabrikin kollektivi MK-nın Ali Sovetin və Nazirlər Sovetinin keçici bayrağı ilə təltif edilir. Daha sonra SSRİ Yeyinti Sənayesi Nazirliyinin də keçici Qırmızı Bayrağı onlara verilir. 1985-ci ildə Nizami Abdullayevin rəhbərlik etdiyi kollektiv ən yüksək zirvəni fəth edir. SSRİ Yeyinti Sənayesi Nazirliyinin keçici Qırmızı Bayrağını daim saxlamaq üçün kollektivə təqdim edilir. İşinin ustası, peşəsinin vurğunu Nizami Abdullayev iki dəfə gümüş, bir dəfə qızıl medal qazanıb.

Onun nailiyyətləri, camaatın işinə can yandırması sadə xalqın da diqqətini cəlb edir. İki çağırış rayon Xalq Deputatları Sovetinə deputat seçilib. 1990-cu ildən təqaüdə çıxana kimi Sumqayıt Yeyinti Məhsulları Kombinatının direktoru vəzifəsində çalışıb.

Qəbələ rayonunda müvəqqəti sürücü işləyən özbək millətindən olan bir nəfər mədə və böyrəyindən əziyyət çəkirdi. Tikanlı kəndinin şimal hissəsində Pənəgər adlı şəfalı bulaq var. Sürücü günlərin birində bura gəlir və həmin bulağın suyundan içir. Bir az da özü ilə götürür. Bir müddət həmin bulağın suyundan istifadə edən sürücünün daxili orqanları tamamilə sağalır. Həmin sürücü xeyirxahlıq edərək, bulağın ətrafını səliqə-sahmana salıb. Bu əhvalat Nizami müəllimi həddindən artıq düşündürürdü. Bu bulağın suyunu kəndə gətirmək lazımdır. O, öz vəsaiti hesabına işə başlayır. Təxminən 3,5 km-ə yaxın məsafədən həmin bulağın suyunu kəndə gətirir. Hazırda Tikanlı kəndinin 3 hissəsində Pənəgər bulağının suyu axmaqdadır. Xeyirxah insan Nizami Abdullayev öz kənd camaatını bulaq suyu ilə təmin etməklə kifayətlənməyib, suyu ən yüksək səviyyələrdə tibbi müayinədən keçirib. Təsdiq olunur ki, doğrudan da bu su ilə mədə-bağırsaq, öd kisəsi, sidik kisəsi, şəkər xəstəliklərini müalicə etmək mümkündür. Dərhal başlayır sexin tikintisinə. Hazırda Tikanlı kəndində fəaliyyətə başlayan iş respublikanın başqa rayonlarına da göndərir. Nizami müəllimdən soruşduq: Sizi bu məsuliyyətli işləri görməkdə istiqamətləndirən, xeyir-dua edən kim olub?

- «Əvvəla müəllimlərimə minnətdaram. Daha sonra həyatımda Məmmədov Kamil Seyid oğlunun böyük, müsbət rolu olub. Həyatımda həmişə ona minnətdaram.» Hal-hazırda kənddə məscid tikilməsi üçün çalışır.

Ad gününü təbrik edirlər: Telman Nizamov, akademik, əməkdar mühəndis, Qəbələ rayon ağsaqqallarından Səməd Səmədov, dövlət qulluqçusu, Namiq Məmmədəlizadə, kənd ağsaqqalı, Qərib Qəribov, dövlət qulluqçusu, Sədiyar Səfərəliyev, dövlət qulluqçusu, Tofiq Allahverdiyev Kənd Ağsaqqallar Şurasının sədri, Fərman Məhəmməd Əzizli.

**Fərman Əzizli**

*Azərbaycan Respublikasının Maarif Xadimi, Əməkdar müəllim, rayon Ağsaqqallar Şurasının idarə heyətinin üzvü, «Paralel» qəzetinin müxbiri*

## Ali Radanın deputatı: "Heydər Əliyevin xidmətlərini heç vaxt unutmarıq"



*"Heydər Əliyev yaxın tarixin çox vacib siyasi fiqurudur. Ukrayna və Azərbaycan arasında diplomatik münasibətlərin qurulması həm də onun sayəsində mümkün olub".*

Bunu açıqlamasında Ukrayna Ali Radasının hakim Xalqın xidmətçisi partiyasından deputatı Yuriy Kamelçuk bildirib.

*"Rusiya yanacaq qiymətlərini artırmağa başladığı və Ukraynaya tədarükü dayandırdığı 1997-ci ildə Azərbaycanın köməyi ilə Ukrayna məhsul yığımını həyata keçirə bilmişdi. Biz bunu unutmarıq. Heydər Əliyev digərləri üçün nümunə olan müasir Azərbaycanın qurucusudur",* - o deyib.

Y.Kamelçuk Heydər Əliyevə minnətdar olduqlarını vurğulayıb: *"Biz Rusiya ilə müharibədə Azərbaycanın göstərdiyi köməyi unutmuruq və hər zaman bir-birimizə kömək edəcəyik. Ölkələrimiz arasında etimadın bu qədər yüksək səviyyədə olmasına görə Heydər Əliyevə sonsuz təşəkkür edirik".*



## ""Nəsimi" filminə baxandan sonra demişdi ki, bu oğlandan muğayat olun..."

*"Çox sevincliyəm, söz tapmıram, qol-qanad qaldırıb oynayıram"*

*"Vallah, söz tapmıram deməyə. Həyatımda bir neçə dəfə olub ki, ürəkdən sevinmişəm, söz tapa bilməmişəm. Belə yerdə deyiblər ki, sözlər acizdir, kəlimələr yetərsizdir. Bütün təşkilatçılara halal olsun ki, bu cür "Xarıbülbül" festivalı təşkil ediblər. Həm yeyirik, həm səfalı yerlərini gəzirik, həm də festivalda iştirak edirik. Bu il festivalın ərazisi bir az da böyüyüb. Şuşa Türk dünyasının mədəniyyət paytaxtı elan olunduğu üçün türkdilli ölkələrdən bura musiqiçilər, sənətçilər gəlib. Dünən onların çox gözəl çıxışı oldu. Mən də qol qaldırıb oynadım. Dostlarla birgə arzuladıq ki, təki belə xoş günlərdə qol qaldırıb oynayaq. Onu da deyim ki, "Xarıbülbül" festivalı ildən-ilə daha da gözəl keçirilir. Şuşada gəzdikcə şəhidlərimizə,ələxsus da dağlarla, qayalarla dırmaşan qəhrəmanlarımıza rəhmət oxuyuram. Onların sayəsində bu gün Şuşaya çox rahat yolla gedirik. Şəhidləri bir an olsun belə unutmamalıyıq".*

Bunu xalq artisti, Kinematoqrafçılar İttifaqının sədri Rasim Balayev deyib. Xalq artisti ümummilli lider Heydər Əliyevlə bağlı xatirələrini də bizimlə bölüşüb.

*"Ümummilli lider, ulu öndər Heydər Əliyev bütün sahələr kimi kino sənətinə də böyük diqqət və qayğı göstərib. Bir məqamı da xüsusilə vurğulamaq istəyirəm ki, Azərbaycan kinosu bu qayğını və dəstəyi ulu öndər hələ Azərbaycan SSRİ Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərlik etdiyi dövrdə görüb. Məhz onun qayğısı ilə bir çox ekran əsərlərimiz yenidən tamaşaçılara nümayiş etdirilib. O ilk dəfə "Nəsimi" filminə baxandan sonra demişdi ki, "bu oğlandan muğayat olun". O qayğını həmişə mən hiss etmişəm. O məndə arxayınlıq yox, məsuliyyət hissi yaradıb. Tək məndə yox, elə hamıda. Bütün sənət adamları bilirdilər ki, o teatr tamaşalarının premyeralarına baxır, gəlib aktyorlarla söhbət edir. İzlədiyi tamaşaları, filmləri sonralar bizlərlə müzakirə edirdi. Ona görə də hamı məsuliyyətli olurdu. Onun gəlişi ilə, təxminən 1969-cu ildə gəldi, 1970-ci ildən bu sfera, Azərbaycan kinosu qaynar həyat keçdi, çoxlu tarixi, gözəl filmlər çəkildi. Hətta bir çox tamaşalara baxıb, filmlər çəkdirirdi. O Musiqili Komediya Teatrında "Qaynana" tamaşasına baxmışdı. Nəsibə Zeynalovanı görəndən sonra deyib ki, "elə film çəkilsin və Nəsibə xanım da baş rolda oynasın. Anarın "Şəhərin yay günləri" tamaşasının motivləri əsasında "İmtahan" filmini çəkdirmişdi. Ulu öndər belə bir şəxsiyyət idi",* - deyə sənətkar bildirib.

# Sara Sarayevanın səksəkəli taleyi

**Onun həyatı dramatik bir filmin mövzusudur. Amma o filmi çəkən yoxdur. O, Hollivud aktrisalarının oynaya biləcəyindən daha məşəqqətli bir həyat yaşadı. Bakının ən zəngin bir ailəsində dünyaya gəldi, ömrünün çoxunu zirzəmidə yaşadı. Zeynal bəy Səlimxanovla qurduğu birinci ailəni inqilab dağıtdı. O, Leninqradda Nikolay Sarayev adlı milliyyətcə tatar olan bir çilingərlə ikinci ailə həyatı qurub Sara Sarayeva oldu. Nikolay çilingər idi. Əslində isə o, Sara Tağıyeva idi. Bakı milyonçusu Zeynalabdin Tağıyevin qızı Sara xanım. Sara xanım atasının parlaq adını bərpa etmək üçün bir adamın edə bilməyəcəyindən çox şey etdi. Bir sistemlə vuruşdu. Psixoteriya dispanserdə ona şizofreniya diaqnozu qoydular. Amma o, yolundan dönmədi. Özünə bir şey istəmirdi, bu millətə atalıq etmiş atasına bəraət istəyirdi.**



Bu məqsədlə Sara xanım Sovet Kommunist Partiyasının XX qurultaydan az sonra əvvəlcə Azərbaycan, sonra isə SSRİ partiya və hökumət rəhbərliyinə atasının maarifpərvər fəaliyyəti haqqında məktublar yazır, məşhur mesenat Hacı Zeynalabdin Tağıyevə münasibətdə haqsızlığa yol verildiyini xatırladırdı. Tağıyevin adının bərpası uğrunda dönməz mübarizədə Sara Sarayevə müxtəlif ünvanlara yazdığı şikayət məktublarına görə 1957-ci ilin noyabr ayında oxu zalının bağlanması bəhanəsi ilə Mirzə Fətəli Axundov adına Rus Dili İnstitutunun kitabxanasında tutduğu vəzifəsindən azad edilsə də, o, bu mübarizəni dayandırmadı. Oxu zalını onu işdən çıxarmaq üçün bağlamışdılar.

1959-cu ilin iyulunda Azərbaycanda rəhbərlik dəyişildikdən sonra da Sara xanım SSRİ və Azərbaycan SSR rəhbərliyinə, partiya və hökumət xadimlərinə, Sovet elmi idarələrinə öz müraciətlərini davam etdirirdi. 1959-cu il avqustun 7-də o, Sov.İKP MK dəftərxanasına yeni ərizə ilə müraciət etmişdi. Onun məktubu araşdırılma üçün Mərkəzi Komitənin Elm və Məktəblər Şöbəsinin məsul əməkdaşı Kuznetsova verilmişdi. Sara xanım onunla görüşə bilsə də, lakin kapitalizm Rusiyasının ucqarlarında maarif və mədəniyyətin inkişafına töhfə vermiş burjua xadimlərinə münasibətdə onu öz fikrindən döndərə bilmədi.

Azərbaycanda rəhbərliyin dəyişməsindən sonra o, bu dəyişikliyin əsas təşəbbüsçüsü olan SSRİ-nin partiya və hökumət lideri Xruşşova müraciət etməyə qərar verdi. 1959-cu il dekabrın 22-də Sara Sarayeva atası və özünün acı taleyi haqqında Sovet rəhbərinə 18 səhifəlik geniş bir məktub göndərdi. O, həyata keçirdiyi inqilabi dəyişikliklərə görə Xruşşova öz təşəkkürünü bildirir, partiyanın XXI qurultayı (1959-cu il) qərarlarının ölkə ictimai elmlərinin, elmi işlərin keyfiyyətinə ciddi təsir göstərəcəyini, ictimai elmlər şöbəsində qayda yaradacağını vurğulayırdı. Sara xanımın cəhdlərindən sonra Bakıda toxucular tətilinin 50 illiyinin qeyd edilməsi ilə bağlı Azərbaycan mətbuatının səhifələrində Tağıyevin fəhlələrə, tətilçilərə qarşı “qəddar münasibəti” haqqında bir sıra yazılar getmişdi. O, Xruşşova məlumat verirdi ki, bütün bunlara aydınlıq gətirmək üçün vaxtı ilə atasının müəssisələrində çalışmış fəhlələrin yanına gedib və həqiqəti öyrənməyə çalışıb. “Fabrikin keçmiş fəhlələri dedilər ki, bütün bunlar yalandır,



bütün bunlar ona görə edilir ki, “belə lazımdır”. Fəhlələr mənə dedilər ki, atamın fabrikində məktəb, kitabxana, fəhlə klubu olub və orada həvəskar fəhlə artistlər rus və Azərbaycan dillərində tamaşalar qoyublar... Mənim atamın fabrikində fəhlələrə pulsuz olaraq dərmanlar veriblər”.

Sara Sarayeva Moskvada, Mərkəzi partiya aparatında işləyən bəzi məsul işçilərdən şikayətlənərək Xruşşova yazırdı ki, Sov.İKP MK Elm Şöbəsindən yoldaş Kuznetsov mənim partiyanın XXI qurultayına göndərdiyim müraciətə opponentlik edərək bu məsələnin aydınlaşmasında dolaşıqlıq yaradır. O, deyir ki, “biz kapitalistləri qaldıra bilmərik”. Azərbaycan KP MK-nın şöbə müdirinin müavini yoldaş Okulov subyektiv təsirlər altında Mərkəzi Komitə katibi yoldaş Nurəddin Mühitdinova savadsız cavab yazıb. O, tarixi hadisələrə yetərli qiymət verə bilməyib, onun məktubunun nəzəri hissəsi elmi mahiyyət kəsb etmir”. Sara xanımın fikrincə, yüksək vəzifəli partiya işçisinin tarixi hadisələrə və şəxsiyyətlərə yanaşma tərzi yanlış idi. O, Xruşşova bəzi nümunələr timsalında izah edirdi ki, şəxsi və dövlət fəaliyyətində I Pyotrun bir sıra mənfi cəhətləri var idi, yaxud Kuprin öz qələmi ilə Sovet hakimiyyətinə qarşı çıxdı, Okulov bütün bunları görmək istəmir və xalqlar arasında tarixi bərabərliyi pozur, Tağıyevin milli və maarifçilik fəaliyyətini ləkələmək istəyir. Sara xanım nümunə kimi Rusiyanın iki çarını, iki imperatorunu, Romanovların iki nümayəndəsini – I Pyotru və II Nikolayı müqayisə edir və onlara öz fəaliyyətlərinə görə fərqli qiymət verildiyini xatırladırdı. O, Sovet liderindən soruşurdu ki, zadəgan Qlinka, mülkədar Lermontov, qraf Tolstoy, təhkimçi Derjavin, erməni kapitalisti Lazarev, rus kapitalisti Tretyakovu öz xalqlarının həyatında oynadığı rol müsbət qiymətləndirildiyi halda, niyə bu yanaşma Tağıyevə tətbiq edilmir, bu adamlar haqqında Böyük Sovet Ensiklopediyasında geniş yazılar verildiyi halda, öz xalqının mənəvi həyatına təkan vermiş Tağıyev haqqında niyə heç nə yazılmır?

Sara xanım Xruşşova məlumat verirdi ki, bağlı qapılar arxasında keçirilən müzakirələrdə bəzi alimlər partiyanı aldadırlar. O, Azərbaycan rəhbərliyindən və elmi idarələrindən yardım görmədiyindən Xruşşovdan xahiş edirdi ki, onun atası Tağıyevin fəaliyyətini araşdırmaq üçün Moskvada, Babacan Qafurov başda olmaqla SSRİ Şərqşünaslıq İnstitutunda müvafiq komissiya yaradılsın. Onun fikrincə, bu komissiyanın nəticələri Azərbaycan alimlərinin tarixi düzgün araşdırmalarına doğru istiqamət verə bilərdi. Sara xanım rus elmində hökm sürən millətçilik və şovinizm haqqında da Xruşşova açıqca yazırdı. O, qeyd edirdi ki, adamlar marksizm-leninizmi yalnız sözdə qəbul edir, əməldə isə onu həyata keçirmir və onu bir kənara qoyurlar. Məktubun sonunda o, başına gətirilən müsibətlərə toxunub yazırdı: “Mənim işdən azad edilməyim haqqında rəsmi sənədləşdirmə yalandır, məni bir neçə dəfə təhdid etmişdilər ki, bu işləri qurtarım və ağzımı yumum. Şəxsiyyətə pərəstiş dövründə mən Leninqradda və Bakıda sonsuz təqiblərə məruz qalmışam, dəfələrlə məsələ qaldırmışam ki, sənədləri saxtalaşdırılmış, oğurlanmış atamın işi kimi dolaşdırılmış mənim işimə baxsınlar. Mən nə atamın, nə də özümün işimə baxılmasına nail ola bildim. Mən işdən azad edildikdən sonra 345 manat məbləğində pensiya alır və zirzəmidə yaşayıram. Bəyəm, rus taciri Tretyakovun qızı, rus kapitalist və mülkədarlarının uşaqları öz valideynlərinin xidmətlərinə görə belə yaşayır?”

Sara xanım Sovet rəhbəri Xruşşovdan xahiş edirdi ki, məruz qaldığı təqib və böhtanlar onunla məhdudlaşsın, uşaqları bu böhtandan mühafizə olunsunlar. O, yazırdı: “Mənim uşaqlarım məndən ayrı uşaq evlərində böyüyüblər. Oğlum ordudan tərxis olunub, Leninqradda yaşayır və 3 aydır ki, iş tapa bilmir. Bəs hansı pula o, yaşamalıdır? Onun atası müharibədə həlak olub, anası kimi mən 345 manat pensiya alıram. Növbəti müvəqqəti olaraq yanıma gələndə vəziyyətin əsirinə çevrilirəm”. Lakin onun şikayətinin araşdırması heç biri müsbət nəticə vermədi.

1960-cı ildə Moskvaya və Bakıya yazdığı müraciətlərdə Sara Sarayeva atası Tağıyevin yalnız Azərbaycanda deyil, Yaxın Şərq, Orta Asiya, Şimali Qafqaz, Kazan və Krımda da maarif və mədəniyyətin inkişafına yardım göstərdiyin xatırladırdı. O, qeyd edirdi ki, Tağıyev İranda mütərəqqi mətbuatın inkişafına təkan vermək üçün “Tərbiyətçi” qəzetinə, Hindistanda “Həbl-ül-mətin” qəzetinə, Boqaranskinin tatar mətbuatına, qazax-qırğızların birinci mətbuat orqanına, Krım tatarlarının birinci qəzeti olan “Tərcüman”a yardım göstərib, Dağıstan alimi Alkadarskinin “Dağıstan tarixi” kitabını nəşr etdirərək min nüsxə müəllifə hədiyyə edib, min nüsxə də pulsuz paylatdırıb, Sankt-Peterburqda 1903-cü ildə nəşr edilmiş rus-ərəb-fars danışıq kitabçasını alıb və pulsuz olaraq adamlara paylayıb, Seyid Əzim Şirvaninin əsərlərini Təbrizdə nəşr etdirib İranda yayıb, Soltan Məcid Qənizadənin Əlisgəndər Cabbarovla birlikdə yazdıqları “Kəlili ədəbiyyat” kitabını gəmi ilə daşıtdırıb İran məktəblərində yaydırıb....

*Ardı var*



**Cəmil Həsənli**

# Stalinin heykəlini yaratmayan sənətkar

**Bütün dövrlərdə yaradıcı insanlar arasında təltif, tərif, mükafatlarla bağlı qısqanclıq müşahidə olunub. Elə sovet dövründə də, dövlət mükafatlarının "bol" olduğu vaxtlarda da incəsənət adamlarının təltif qısqanclığı özünü açıq şəkildə büruzə verib. Qısqanclıq hədəfinə düşənlərdən biri də heykəltəraş Vera Muxina olub. Onun beş dəfə Stalin mükafatına layiq görülməsi həmkarları tərəfindən atmacalarla qarşılanıb: "Muxina beş dəfə Stalin mükafatı alıb, amma bir dəfə də olsun yaradıcılığında Stalinin obrazını yaratmayıb..."**





## Buna baxmayaraq, o, 5 dəfə Stalin mükafatı alıb

Maraqlıdır, Vera Muxina digər rəssamlar, heykəltəraşlar, yazıçı və şairlər kimi niyə sovet liderini vəsf etmək həvəsində olmayıb? Dövlət tərəfindən imtiyaz və güzəştlərə sahib olan, ən ali mükafatları alan heykəltəraş özünü niyə kənarda saxlayıb?

Əslində, mövcud dövrdə bu cür işlərdən kənarda qalmaq təhlükəli bir mövqe sayılıb. "NKVD"-nin səlahiyyətlərinin aşıb-daşdığı vaxtda Stalini təbliğ etmək istəməyənləri "antisovet fəaliyyət" damğası gözləyib. Vera Muxina bu damğadan böyük "məharətlə" yayınmağı bacarıb...

1951-ci ilin yazında Mərkəzi Komitənin bir neçə yüksək ranqlı məmuru Muxinanın bağ evindəki emalatxanasına gəliblər. Qısa girişdən sonra onlar gəlişlərinin məqsədini açıqlayıblar:

- Vera İqnatyevna, biz bu ilin dekabr ayında Stalinin doğum günündə onun yeni abidəsinin açılışını planlaşdırmışıq. Abidənin hara qoyulacağı bu günlərdə müəyyənləşəcək. Sizin üzərinizə isə bu abidəni hazırlamaq düşür. Buna görə sizi böyük pul mükafatı gözləyir və siz altıncı dəfə Stalin mükafatı laureatı olacaqsınız. Bu işdən imtina etdiyiniz təqdirdə isə oğlunuzu həyat yoldaşınızın aqibəti gözləyir.

Rejimin acısını bir dəfə dadan Muxina bu açıq hədə-qorxunun nə ilə nəticələyini yaxşı anlayıb:

- Əlbəttə, bu mənim üçün böyük məsuliyyətdir və mən bütün yaradıcılıq imkanlarından istifadə etməyə hazıram. Amma siz yoldaş Stalinə məlumat verin ki, bu iş naturadan aparılacaq və üç ay vaxt lazım gələcək. Buna görə də əvvəlcədən Stalinlə razılaşdırmaq lazımdır ki, o, qarşımda dayanmağa vaxt ayıra bilsin.

Müzakirəni olduğu kimi Stalinə məruzə ediblər. Sovet lideri heykəltəraşa öz xətti ilə kiçik bir qeyd göndərib: "Hörmətli Vera İqnatyevna, sizin xahiş və tələbinizə cavab olaraq bildirmək istəyirəm ki, növbəti ilin yaz aylarına qədər vaxt ayırmaq imkanından xaricəm. Biz vaxt məsələsinə yenidən baxarıq..."

Stalin heç növbəti ilin yaz aylarında da heykəltəraş qarşısında "poz" verməyə vaxt ayırmayıb, daha bir ildən sonra isə o, gözlərini əbədi yumub. Bununla da, Vera Muxinanın canı Stalinin abidəsini hazırlamaq zəhmətindən birdəflik qurtulub.

Vera Muxina 1889-cu ildə Riqada anadan olub. Valideynləri erkən yaşlarında vəfat etdiyindən o, Kurskda qohumlarının himayəsində böyüyüb, orta təhsilini də bu şəhərdə alıb. Orta təhsilini başa vurduqdan sonra Muxina bacısı ilə birlikdə Moskvada məskunlaşıblar. O, Moskvada rəssamlıq məktəbində təhsilini davam etdirib, tanınmış rəssam İvan Dudindən dərs alıb. Daha sonra Parisdə "Kalarossi" studiyasında rəssamlıq kursları, İtaliyada heykəltəraşlıq təcrübəsi keçib.

Muxina Moskvaya 1914-cü ildə qayıdıb. I dünya müharibəsi başlananda o, könüllü olaraq tibb bacısı kurslarına yazılıb və müharibə illərində hərbi hospitalda çalışıb. Bu ərəfədə Muxina gənc həkim Aleksey Zamkovla tanış olub. Onlar 1918-ci ildə ailə həyatı qurublar.

1918-ci ildə Lenin tərəfindən "Monumental sənətin inkişafı, onun inqilabın və kommunist ideologiyasının ən mühüm təşviqat vasitəsi kimi səfərbər edilməsi" proqramı təsdiq ediləndə Muxina bu proqramın icrasının ən fəal üzvlərindən biri olub.

Muxina heykəltəraş kimi zamanla populyarlaşıb, sərgilərdə ona xüsusi yer ayrılıb, o, eyni zamanda xaricdə təhsil almış bir sənətkar kimi Moskva Ali İncəsənət İnstitutunda dərs deyib. Onun ən məşhur əsərləri sırasında Moskvadakı "Fəhlə və Kəndli" monumenti, Riqadakı "Azadlıq abidəsi", Maksim Qorkinin, Pyotr Çaykovskinin, Nikolay Burdenkonun abidələri xüsusi yer alıb.

1930-cu illər Muxinanın da həyatında qara izlər buraxıb. Onun həyat yoldaşı Aleksey Zamkov həmin dövrdə Biologiya İnstitutunda işləyib və o, daha çox qeyri-ənənəvi təbabətlə məşğul olub. Onun xidmətlərindən Stalinin bir çox silahdaşları yararlanıblar. O, cümlədən Vyaçeslav Molotov və Maksim Qorki də məhz Zamkovun hesabına şəfa tapıblar. Zamkov kəşf etdiyi qravidan preparatı ilə daha da məşhurlaşıb, bu preparat müalicə vasitəsi kimi böyük effekt versə də, çox keçməmiş onun istehsalını və istifadəsini dayandırıblar. Belə ki, qravidanterapeyada hamilə qadınların sidiyindən istifadə edildiyinə görə bu kəşf sovet ideologiyası üçün "şeytan əməli" sayılıb. Zamkov institutdakı işindən azad edilib. Həbs təhlükəsindən qurtulmaq üçün o, SSRİ-dən qaçmağa məcbur olub. Amma sərhəddə onu saxlayıblar. Üç il həbsdə saxlandıqdan sonra Maksim Qorkinin xahişi ilə Zamkov azadlığa buraxılıb.

Həkimə azadlıq verilsə də onun adı "NKVD"-nin qara siyahısından çıxarılmayıb və Zamkovlar nəslinin nümayəndələri, əvvəlcə bacısının həyat yoldaşı, sonra bacısı, daha sonra əmisi oğlu və digər yaxın qohumları bir-birinin ardınca həbs olunublar. Bütün bunlara tab gətirməyən Zamkov 1939-ci ildə infarkt keçirib, davam edən gərginlik 1942-ci ildə ikinci infarkta səbəb olub ki, 59 yaşı Zamkov həyatını itirib.

Elə bu səbəbdən də "mücrü"sündə beş Stalin mükafatının vəsiqələrini saxlayan Muxina Stalini vəsf etməyi özü üçün qəbuledilməz sayıb. 1951-ci ildə sovet liderinə üç aylıq poz vermək təklifini isə o, oğlunu xilas etmək üçün edib.

Vera Muxina Stalindən yeddi ay sonra, 1953-cü ilin oktyabrın 7-də vəfat edib. O, Moskvada, Novodeviçye qəbirstanlığında həyat yoldaşının yanında dəfn olunub.

# "Trotskinin adamı" olan komissar Bubnov

## Yejovun qovluğu, Stalinin dərkənarı və edam



1937-ci ilin oktyabr ayında Mərkəzi Komitənin plenumu keçiriləndə onu Kremlə buraxmayıblar. Andrey Bubnov Mərkəzi Komitənin üzvü olduğunu təsdiq edən vəsiqəni təqdim etsə də, ondan xüsusi buraxılış vərəqəsi tələb olunub. Rusiya xalq maarif komissarı (naziri) Kremlin komendantıyla, Mərkəzi Komitənin katibliyi ilə əlaqə yaratmağa çalışıb, amma buna da imkan verilməyib. Əslində, buraxılış vərəqəsi, şəxsiyyətin təsdiqi üçün tələb olunan sənədlər bir bəhanə olub. Bubnovu Kremlin sıravi mühafizəçilərindən tutmuş, Mərkəzi Komitənin birinci şəxslərinə qədər hamı yaxşı tanıyıb. Plenuma buraxılmayan komissar öz iş yerinə qayıdıb, bir neçə saatdan sonra isə Bubnov vəzifədən azad olunması barədə xəbəri radiodan eşidib...

1884-cü ildə İvanovo-Voznesensk şəhərində anadan olan Andrey Bubnov orta məktəbi bitirdikdən sonra Moskva Kənd Təsərrüfatı İnstitutuna daxil olub. O, çox gənc yaşalarından marksist ədəbiyyatına böyük maraq göstərib. Bu maraq onu 1903-cü ildə bolşeviklər partiyasının sıralarına aparıb.

Bubnovun inqilabi hərəkatda fəallığı artıqca, həbslərinin sayı da artıb. Amma bu həbslər, təhdid və təzyiqlər, daha uzun müddətə sürgünə göndərilmək təhlükəsi onu qorxutmayıb. O, oktyabr inqilabı zamanı ən fəal bolşeviklərdən biri sayılıb. Lenin inqilabdan sonrakı ilk çıxışında Bubnovun fəaliyyətinə yüksək qiymət verib. O cümlədən Lev Trotski də Bubnovun inqilabi proseslərdəki xidmətini yüksək dəyərləndirib.

İnqilabdan sonra Bubnov partiyanın Siyasi Bürosuna üzv seçilib, eyni zamanda Petroqrad hərbi şurasının üzvü olub.

Rusiyanın mövcud dövrdəki siyasi müstəvisində Bubnov Trotski qruplaşmasının üzvü kimi tanınıb. Amma çox keçməmiş o, özünü bu mövqeyindən çəkinmiş kimi göstərib və 1918-ci ildə fəaliyyətini mərkəzdən kənarda Ukraynada davam etdirib, əvvəlcə Ukrayna Xalq Respublikası Sovetinin təsərrüfat işləri üzrə xalq katibi, sonra Ukrayna mərkəzi hərbi inqilabi komitəsinin və Ukrayna Sovet Respublikasının Mərkəzi İcraiyyə Komitəsinin sədri vəzifələrini tutub.

1922-ci ildə İosif Stalin Mərkəzi Komitənin baş katibi (həmin dövrdə bu vəzifə məhz baş katib adlandırılıb) seçiləndə Bubnovu Ukraynadan Moskvaya qaytararaq Mərkəzi Komitənin təbliğat-təşviqat şöbəsinin müdiri vəzifəsinə təyin edib. Stalinin bu təyinatı heç də onu yaxın silahdaşı kimi yanına gətirmək məqsədi daşımayıb. Sovet lideri Bubnovun Ukraynadakı fəaliyyətindən "narahat" olub, mərkəzdəki qruplaşmalarda ona qarşı çıxanların Ukraynadan dəstək alacağından qorxub. Stalin Bubnovun Ukraynadakı nüfuzundan da xəbərdar olub, elə bu məqsədlə də onu "zərərsizləşdirmək" üçün öz yanında olmağını məqsədəuyğun sayıb.

Bubnovun Moskvaya gətirilməsi müzakirə olunanda Vyaçeslav Molotov Stalinin bu addımını təəccüblə qarşılayıb. Sonrakı açıqlamalarında Molotov bu haqda fikirlərini aşağıdakı kimi bölüşüb:

"1922-ci ildə Stalin Bubnov haqqında qərarını bildirəndə mən buna etiraz etdim. Mərkəzi Komitənin təbliğat-təşviqat şöbəsi kifayət qədər səlahiyyətli bir şöbə idi. Bu şöbə Kommunist Partiyasının ideologiyasını müəyyənləşdirən, təbliğ edən, kütlələr arasında təşviqat işi aparan, yeri gələndə kütləleri öz arxasınca aparmağı bacaran bir şöbə idi. Belə bir şöbəyə siyasi əqidəsi sabit olmayan, Trotskinin ən yaxın tərəfdarı sayılan şəxsi təyin etmək məqbul sayıla bilməzdi. Stalin bununla bağlı mənim etirazımı sona qədər dinlədi, mənimlə razılaşdığını da bildirdi, sonda isə aramızdakı fikir ayrılığına qısa bir cavab verdi:

- Biz bizə düşmən olanları, bizim siyasi kursa qarşı çıxanları gözümüzün önündən çox da uzağa buraxa bilmərik...

Mən sonralar Stalinin bu təyinatda nə qədər düzgün addım atdığını anladım..."

1924-cü ilə qədər Mərkəzi Komitədə şöbə müdiri vəzifəsində işləyən Bubnov Leninin vəfatından sonra aparatdan uzaqlaşdırılıb. Stalin onu qırmızı ordunun siyasi işlər idarəsinə rəis təyin edib. Əslində, Bubnov daha yüksək vəzifə gözlədiyi halda Mərkəzi Komitədən uzaqlaşdırıldığının səbəbini yaxşı anlayıb. Stalinin ona qarşı "xoş" münasibətinin heç də səmimi olmadığını yaxşı dərk edib. Buna baxmayaraq, Bubnov ordudakı vəzifəsinin icrasına həvəslə başlayıb. Həmin dövrdə hərbi məsələlər üzrə xalq komissarı Trotski olduğundan köhnə silahdaşlar yenidən bir qurumda və qrupda birləşiblər.

Orduda siyasi işlər idarəsinin rəisi kimi Bubnovun fəaliyyətində bir neçə dəfə şübhəli məqamlar ortaya çıxıb. Bu dəfə Bubnovun vəzifə məsələsinə artıq hərbi məsələlər üzrə komissar vəzifəsini tutan Kliment Voroşilov müdaxilə edib. O, Stalinə məruzəsində Bubnovun ordudan təcili uzaqlaşdırılmasının zəruri olduğunu vurğulayıb.

1929-cu ildə Bubnov Rusiya xalq maarif komissarı vəzifəsinə təyinat alıb. O, bu vəzifədə olarkən Rusiya təhsilində bir sıra islahatlar, xüsusilə də savadsızlığın aradan qaldırılması işində zərurri tədbirlər həyata keçirsə də, Bubnovun ölkənin siyasi proseslərinə müdaxiləsi tam məhdudlaşdırılıb.

Bubnov növbəti zərbəni "NKVD" rəhbəri Nikolay Yejovdan alıb. Yejov onun antisovet fəaliyyəti haqqında hazırladığı qovluğu Stalinə təqdim edib. Stalinin yazılı "həbs edilsin" dərkənarı və şifahi "bu yaramazla məsələni bitirmək lazımdır" ifadəsi Bubnovun həyatına və vəzifə karyerasına birdəfəlik son qoyub.

1937-ci ilin oktyabr ayında Bubnov antisovet fəaliyyətdə və terrorçuluqda ittiham edilərək həbs olunub. 1 avqust 1938-ci ildə 54 yaşlı sabiq komissar ən ağır cəzaya məhkum edilərək güllələnib.

Təqdim edən: İlham Cəmiloğlu

# Paralel

**Son səhifə**

www.paralel.az
e.mail adresi:
paralel_qazeta@mail.ru

№ 058 (3626) 11 may 2023-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik



## Banan əsl enerji mənbəyidir

**Banan çox faydalı hesab olunur, çünki o əsl enerji və kalium mənbəyidir, eləcə də A, B və C vitaminləri və qida maddələri və minerallar: fosfor, kalsium, dəmir, sink, kalium və maqnezium ilə zəngindir.**

Bundan əlavə, banan çox yaxşı həzm olunan və doyurucu hesab olunur, buna görə də idmançılar, balaca uşaqlar və mədə-bağırsaq problemləri olan insanlar arasında xüsusilə populyardır. Banan mütləq gündəlik menyuya daxil edilməlidir. Onun bir çox üstünlükləri var, sağlam qidalanma və kifayət qədər vitamin və minerallar ehtiyatına töhfə verir. Bu barədə həkim-nutrisioloq İqor Strokov “MedikForum”a bildirib.

Strokov bananın sağlamlıq üçün əsas üstünlüklərini sadalayıb. Banan orqanizmi tez bir zamanda enerji ilə təchiz edir və onu intensiv məşqə hazırlayır; əzələ kütləsini artırır və elektrolit balansını sabitləşdirir. Tərkibində olan pəhriz lifləri həzmi tənzimləyir və beləliklə, qəbizlik və ishala qarşı kömək edir. Banan qan təzyiqini tənzimləyir, çünki tərkibindəki kalium və az miqdarda olan duz eyni zamanda yüksək qan təzyiqinin qarşısını alır. O, əbəs yerə imtahanlar öncəsi beyin üçün populyar qida hesab olunmur. Meyvə beyin fəaliyyətini yaxşılaşdırmağa kömək edə bilər. Banan qabığı da faydalı ola bilər. Örtüyün daxili hissəsi həşərat dişləmələri nəticəsində yaranan qaşıntıları da aradan qaldıra bilər.

# Qidaları dondurmağın əhəmiyyəti və üsulları

Dondurulma qidanın saxlanması üçün ən qədim və daha çox istifadə olunan üsullardan biridir və həmin üsul qidanın təbii dadının, görünüşünün və qida dəyərinin ən yaxşı qorunmasını təmin edir. Dondurulmuş qidalarda mikroorqanizmlərin inkişafı dayanır, fermentlərin fəaliyyəti və kimyəvi reaksiyaların sürəti azalır. Beləliklə, dondurulmuş qidalar xarab olmadan uzun müddət saxlanıla bilir.

Bu barədə Qida Təhlükəsizliyi İnstitutunun Elmi Araşdırmalar Mərkəzi departamentinin Qida təhlükəsizliyi və risklərin qiymətləndirilməsi şöbəsinin böyük mütəxəssisi Xədicə Doldolovanın hazırladığı məqalədə bəhs olunur.

Meyvə və tərəvəzlər bütöv şəkildə, yarıya bölünərək, eləcə də dilimlənərək və ya kublar şəklində kəsilərək dondurula bilər. Meyvələri şəkər siroplarında və ya şəkər əlavə etmədən müəyyənləşdirilmiş formalarda da dondurmaq olar. Bundan əlavə, meyvə və tərəvəz şirələri, püresi və ya konsentratları da qida sənayesində çox vaxt dondurulur. Bu zaman meyvə və tərəvəzlərdə dondurulma prosesinin əsas prinsiplərini və baş verə biləcək keyfiyyət dəyişikliklərini bilmək vacibdir.

Qidanın dondurulması temperaturun donma nöqtəsindən (qəbul edilən temperatur -18 dərəcə C) aşağı endirilməsi zamanı qidanın tərkibindəki suyun əhəmiyyətli hissəsinin, təxminən 85 faizinin buz kristallarına çevrilməsi prosesidir. Qeyd edək ki, meyvə və tərəvəzlərin tərkibindəki suyun 85-90 faizi donmaya hazırdır. Həmin suyu buza çevirməklə məhsulların tərkibindəki suyun miqdarında azalma müşahidə oluna bilər. Suyun aktivliyi ilə bərabər temperaturun da aşağı düşməsi isə kimyəvi və biokimyəvi reaksiyaların, eləcə də mikrobların fəaliyyətinin sürətini azaldır. Dondurulma prosesi zamanı ilk buz kristallarının əmələ gəldiyi temperatur qidanın su aktivliyinə görə dəyişir. Məsələn, tərkibinin təxminən 70 faizi su olan təzə ət məhsullarının ilkin donma temperaturu -1 dərəcə C civarında olduğu halda, 90 faizi sudan ibarət olan meyvələrdə həmin göstərici -2 dərəcə C ilə -3 dərəcə C arasında dəyişir. Tərkibində daha çox su olsa da, meyvələrdəki yüksək şəkər və üzvi turşu konsentrasiyası suyun fəaliyyətini azaldır. Bu səbəbdən meyvələr ətlə müqayisədə daha aşağı temperaturda donur.

Dondurulma qida məhsulunun növündən, tərkibindən, kütləsindən, proses zamanı istifadə edilən ətraf mühit şəraitindən (temperatur, hava sirkulyasiyası və s.) və istilikötürmə növündən asılı olaraq, müxtəlif sürətlə baş verə bilər. Ümumiyyətlə sürətli dondurulmuş meyvə-tərəvəz məhsulu daha keyfiyyətli olur, çünki donma prosesi çox yavaş baş




verəndə, iri buz kristalları tədricən hüceyrədən çıxır. Eyni zamanda məsaməli hüceyrə membranı buz kristallarının əriməsi zamanı zədələnir. Sürətli dondurulmanın yavaş dondurulma ilə müqayisədə üstünlüyü odur ki, sürətli dondurulan qidaların saxlanma zamanı mümkün temperatur dəyişikliklərinə qarşı baş verə biləcək yenidən kristallaşma itkiləri azdır. Yavaş bütöv dondurulan meyvələr aşağı temperaturda saxlansa, bu zaman həmin məhsullarda həcmin genişlənməsi, büzülmə və daxili təzyiq kimi faktorlar səbəbindən çatlamalar baş verə bilər.

Yeri gəlmişkən, dondurulma və saxlanma zamanı meyvə-tərəvəzlərin tərkibindəki C vitaminində itki baş verir və həmin itkinin bir çox səbəbi ola bilər. Bunlara temperatur-zaman nisbəti, meyvə və tərəvəzin növü, tətbiq edilən ilkin emallar, qablaşdırma növü və dondurulma üsulu daxildir. C vitamini itkisinin əsas səbəbi isə askorbat oksidaz fermentidir. Əgər həmin ferment dondurulma zamanı təsirsiz hala salınmasa, məhsullar saxlananda da aktiv qala bilər.

Dondurulma əslində qida dəyərinə az təsir edir. Lakin həmin prosesdən əvvəl ilkin emal və saxlama zamanı qida dəyərinin itirilməsi baş verir. Dondurularaq saxlanılan qidalarda fermentlərin fəaliyyəti çox yavaş olsa da, davam edir. Ona görə də orqanoleptik göstəricilərində arzuolunmaz dəyişikliklərə səbəb ola biləcək fermentləri təsirsiz hala gətirmək üçün tərəvəzlərin əksəriyyətini dondurulmadan əvvəl qaynatmaq lazımdır. Qaynatma həm də tərəvəzlərin rəngini qoruyur və mikrob yükünü, yəni bir maddənin səthində mövcud olan mikroorqanizmlərin miqdarını azaldır.

Beləliklə, dondurulma meyvə və tərəvəzlərin təzəliyinin ən yaxşı qorunub saxlanıldığı mühafizə üsuludur. Dondurulmuş meyvə və tərəvəz məhsullarında son keyfiyyət isə xammalın seçilməsindən, dondurulma şəraitindən, qablaşdırmadan və ilkin emalların adekvat tətbiqindən asılıdır. Dondurulan qidaların saxlanılması və əriməsi zamanı keyfiyyətə mənfi təsir göstərən bəzi fiziki və kimyəvi dəyişikliklər isə qaçılmazdır. Qeyd edək ki, dondurulma və dondurulmuş məhsulların saxlanılması prosesində rast gəlinən keyfiyyət itkilərini minimuma endirmək üçün müvafiq texnologiyanın təkmilləşdirilməsinə ehtiyac var, çünki hazırda dondurulmuş qida istehlakı sürətlə artır. Ona görə də tələbata uyğun olaraq dondurulmuş qidaların istehlakçıya keyfiyyətli, təhlükəsiz və fərqli təqdim edilməsi vacibdir.



## Mərci xərçəngin bütün növlərindən qoruya bilər

**Mərci xərçəngin bütün növlərindən qoruya bilən qida məhsuludur.**

Bağırsaq xərçəngi nöqteyi-nəzərindən mərci bağırsağımızın sağlamlığı üçün faydalı olan prebiotik liflə zəngindir. Bu barədə həkim-diyetoloq İqor Strokov “MedikForum”a müsahibəsində deyib.

Həkim qeyd edib: *“Lakin məsələ yalnız onun bütövlükdə xərçəngin inkişaf riskini azaldan antioksidant və flavonidlərlə zəngin olmasında deyil. Mərcinin tərkibində, həmçinin qan təzyiqi və ürək sağlamlığı üçün faydalı olan fol turşusu və kalium var. Əgər siz qırmızı ətin qəbulunu azaltmağa çalışırsınızsa, onu mərcinin zəngin olduğu bitki zülalları ilə əvəz etməlisiniz”.*

*Təsisçi:*
**Tapdıq Abbas**

*Baş redaktor:*
**Akif Nəsirli**

*Birinci müavin:*
**Şahnaz Salehqızı**

*İnformasiya şöbəsinin müdiri:*
**Röyal Əsədli**

*Bölgə müxbirləri:*
**Vaqif Cəmiloğlu**
**Sadıq Sadıqlı**
**İqbal Məmmədov**
**Əlizadə Nəhmədağaoğlu**
**İlkin Əsədzadə**

*Qəzet 16 fevral 2003-cü ildən çıxır.*

Ünvan: AZ 1073, Azərbaycan, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, 6-cı mərtəbə “Azərbaycan” nəşriyyatı
Tel: **510 15 07**, Fax: **510 15 06**
E_mail: paralel_qazeta@mail.ru
*Qəzet “Son Dakika” MMC-nin mətbəəsində çap olunub.*
Əlyazmalara rəy verilmir və geri qaytarılmır.
Qeydiyyat №257
Sifariş: **2185** Tiraj: **1550**